Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
23 DEKABR ŞƏNBƏ 2023 | 49 (4150) Qiymməti - 40 qəpik www.kaspi.az
'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

İLHAM ƏLİYEV BEYNƏLXALQ SƏVİYYƏDƏ QƏBUL EDİLƏN, SÖZÜ EŞİDİLƏN AZSAYLI DÖVLƏT XADİMLƏRİNDƏNDİR

# BÖYÜK DÖVLƏTİN BÖYÜK LİDERİ



Xalqın budəfəki seçimi də 20 illik hakimiyyəti dövründə verdiyi bütün sözləri yerinə yetirən Müzəffər Ali Baş Komandan İlham Əliyev olacaq. Onun siyasi liderliyində daha inamlı gələcəyə, daha parlaq sabahlara doğru qətiyyətli addımlarla irəliləyəcəyik.

- Dövlət başçısının uzaqgörən siyasəti nəticəsində əldə edilən maliyyə gücü ilk növbədə ölkə vətəndaşlarının sosial rifah halının yaxşılaşdırılmasına, neft kapitalının insan kapitalına çevrilməsinə istiqamətlənib. Ölkə əhalisinin gəlirləri artıb, keçmiş qaçqın və məcburi köçkünlərin yaşayış şərtləri yaxşılaşdırılıb.
- Sağlam ruhda, vətənpərvərlik hissləri ilə yetişdirilən gənc nəsil, həm də güclü ordu deməkdir. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu ilk illərdən başlayaraq, Azərbaycanda güclü ordu quruculuğu prosesi Ali Baş Komandan kimi dövlət başçısının əsas prioritetlərindən biri olub.
- Siyasi lider olaraq İlham Əliyevi xalqına sevdirən, ona sarsılmaz inamını formalaşdıran ən mühüm amillərdən biri də Prezidentin sadə vətəndaşlarla səmimi ünsiyyəti, onlarla daimi görüşləri, problemlərini, qayğılarını ilk mənbədən öyrənməyə üstünlük verməsidir.

SƏHİFƏ 8-9-da

**QARABAĞ BİZİMDİR, QARABAĞ AZƏRBAYCANDIR!**

20 illik fəaliyyətin əsas qayəsi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması idisə, bu fəaliyyətin zirvə nöqtəsi Xankəndidə Azərbaycanın üçrəngli bayrağının dalğalandırılmasıdır.

XANKƏNDİYƏ FUTBOL BAYRAMI İLƏ QAYITMAQLA DÜNYAYA MESAJ VERDİK Kİ, SÜLH İSTƏYİRİK!

# BİZ QAYITDIQ!



Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərləri regional sülhə töhfə baxımından diqqət çəkir. Qısa müddətdə Xankəndiyə edilən ikinci səfər və verilən əmin mesajlar gələcəyə nikbin baxmaq üçün əsaslar verir.

**YENƏ KÖVRƏLDİK, GÖZLƏRİMİZ YAŞARDI**

Xankəndidə "Qarabağ" və MOİK klubları arasında Azərbaycan kubokunun 1/8 final qarşılaşmasının oyunu keçirildi. Yenə kövrəldik, yenə gözlərimiz yaşardı, yenə qəlblərimiz qürur hissi ilə dağa döndü.

Oyun öncəsi baş verənləri izləmək necə də həyəcanlı idi.

**XANKƏNDİYƏ FUTBOL BAYRAMI İLƏ QAYITDIQ**

Təşkilatçılıq da yüksək səviyyədə idi. Hər şey incəliyinə qədər düşünülmüşdü. Meydana doğma Qarabağı təmsil edən, Azərbaycan futbolunun qüruru "Qarabağ"la Qarabağı işğaldan azad edən ordunun təmsilçisi MOİK klubları çıxırdı.

SƏHİFƏ 2-3-DƏ

DİQQƏTİN DƏRSDƏ OLMASI ÜÇÜN...

## SİNİF OTAQLARINDA SMARTFONLARA QADAĞA?



- Artıq dünyanın bir çox ölkəsində bu qərar qəbul edilib. UNESCO-nun "Global Education Monitor" hesabatında da sinif otaqlarında smartfonların qadağan edilməsi təklif edilir. Azərbaycanda isə bu məsələyə münasibət birmənalı deyil. Ölkəmizdə də problem daim müxtəlif kontekstlərdə gündəmə gəlir.

SƏHİFƏ 11-də



**PALÇIQ VULKANLARI TURİZM ALƏTİ KİMİ**

- Azərbaycanda bu sahənin inkişafı ilə bağlı yaxşı perspektivlər var. Yaxın vaxtlarda Abşeron rayonunun Qobustan kəndinin ərazisində tikilən Palçıq Vulkanları Turizm Kompleksinin açılışı gözlənilir.

SƏHİFƏ 13-də



**SU ANBARLARI XƏSTƏLİK MƏNBƏYİ ROLUNDA**

- Bakı şəhərindəki binaların ehtiyat su anbarları ən azı ildə bir dəfə yuyulmalıdır. MTK-lar tərəfindən idarə edilən binalardakı su anbarlarının yuyulması idarəedicilərin insafına qalıb.

SƏHİFƏ 12-də



**MİKROMOBİLLİK SAHƏSİNDƏ YENİLİK**

- "Avtomobil yollarının enini bir metr qısaltmaqla skuterlər və velosipedlər üçün yol yarada bilərik. Lakin bunu səkiyə çıxmamaq şərti ilə etmək lazımdır. Çünki səkilərimiz onsuz da məhduddur".

SƏHİFƏ 15-də



**ÜZVLÜK, YOXSA SADƏCƏ VƏD?**

- Qərb postsovet məkanına daxil olan ölkələri nəzarətdə saxlamaq üçün bu cür şirnikləndirici vədlər verir. Hədəf bölgədə mövqelərini gücləndirmək və Rusiyanı zəiflətməkdir.

SƏHİFƏ 6-da



**ERMƏNİ KİLSƏSİ: SİLAHLI REVANŞİZM MƏNBƏYİ**

- Erməni keşişləri separatizmə aludə olduqları qədər də rəzil və qorxaqdırlar. Bu gün Ermənistanda kilsələrdə, müxtəlif tədbirlərdə qisas hissi ilə alovlansalar da, Qarabağdan ilk qaçanlar da məhz onlar olublar.

SƏHİFƏ 4-də



**BANK SEKTORUMUZ HARA GEDİR?**

- Azərbaycanda bankların sayında azalma müşahidə edilir. Son bir ildə ölkədə üç bankın lisenziyası ləğv olunub. Bu proseslər bank sektorunun gələcəyi üçün nələr vəd edir?

SƏHİFƏ 7-də



"Bakının Baş Planı üzərində iş başa çatıb"
Səhifə 10-da



Ermənistan Rusiyanın əsarətinə qayıdır
Səhifə 5-də



SOCAR "Equinor"un paylarını alıb
Səhifə 10-da



İdxal ətin qiymətini tənzimləyəcəkmi?
Səhifə 14-də



Xankəndidə futbol bayramı
Səhifə 16-da



BAŞ REDAKTORDAN
İlham Quliyev
ilhamquliyev@kaspi.az

# Xankəndiyə xoş gəldik!

Bizim nəslin təmsilçiləri həmişə bəxtlərindən gileyli olub. Deyirdik Allahın bizə biçdiyi ömür çərçivəsində elə hey neqativə köklənmiş tarixi hadisələrin şahidi olmuşuq. Böyük bir iqtisadi sistemin çöküşünü yaşadıq, az qala aclıqla üz-üzə qaldıq, çarəsizcəsinə torpaqlarımızın işğalına şahidlik etdik, həyatımızdan dəhşətli pandemiya keçdi. “Taleyimizə bir xoş gün yazılmayıbmı” deyə, deyinənlərimiz, fəğan edənlərimiz də az deyildi.

Amma son üç ildə sanki fələyin çarxı tərsinə dönüb. Bir sevinci yaşayıb qurtarmamış bir başqa sevincə şahidlik etmiş oluruq. 30 il həsrətində olduğumuz torpalarımızın 44 günə düşmən tapdağından azad olunması sevinci, onun ardınca Laçında sərhəd-buraxılış məntəqəsinin qurulması, onun ardınca cəmi 23 saata separatçı rejimin çökdürülməsi, uzun illərdir əsəblərimizlə oynayan, qürurumuza toxunan separatçı quldurbaşıların həbs olunaraq qolu qandallı Bakıya gətirilməsi, Xankəndi şəhərində dövlət bayrağımızın ucaldılması.....

### YENƏ KÖVRƏLDİK, YENƏ GÖZLƏRİMİZ YAŞARDI

Dekabrın 21-də bu siyahıya daha biri əlavə olundu. Xankəndidə “Qarabağ” və MOİK klubları arasında Azərbaycan kubokunun 1/8 final qarşılaşmasının oyunu keçirildi. Yenə kövrəldik, yenə gözlərimiz yaşardı, yenə qəlblərimiz qürur hissi ilə dağa döndü.

Oyun öncəsi baş verənləri izləmək necə də həyəcanlı idi. Stadiona toplaşanların bir ağızdan himnimizi oxuması, tamaşaçıların səsləndirdikləri şüarlar, xorla oxuduqları vətənpərvərlik mahnıları, az qala qələbəmizin himninə çevrilmiş “Xudayar” təsnifi...

### HƏR ŞEY İNCƏLİYİNƏ QƏDƏR DÜŞÜNÜLMÜŞDÜ

Təşkilatçılıq da yüksək səviyyədə idi. Hər şey incəliyinə qədər düşünülmüşdü. Meydana doğma Qarabağı təmsil edən, Azərbaycan futbolunun qüruru “Qarabağ”la Qarabağı işğaldan azad edən ordunun təmsilçisi MOİK klubları çıxırdı. Oyunu idarə edən hakimlər briqadası da bütünlüklə 44 günlük müharibədə iştirak edənlərdən təşkil edilmişdi. Futbolçular meydana Qarabağı işğaldan azad edərkən şəhid olan qəhrəmanlarımızın övladlarının əlindən tutaraq, onlarla birgə çıxdılar. Prezident İlham Əliyev də çıxışını şəhid əmanətlərini alqışlayaraq və alqışladaraq başladı. Oyunu da məhz onların əhatəsində izlədi. Necə gözəl mənzərə idi...

### BİZ XƏNKƏNDİYƏ FUTBOL BAYRAMI İLƏ QAYITDIQ

Bu mənzərələr, Prezidentin çıxışındakı notlar, verilən mesajlar göstərdi ki, Azərbaycan sülh istəyir! Biz sadəcə, torpaqlarımızı işğaldan azad etmişik, orada kök salmış başqa dövlətlərin əlində oyuncağa çevrilən separatçıların kökünü qazımışıq. O torpaqlara qayda-qanun, nizam-intizam gətirmişik. İşğal dövründəki 30 ildə bir daşın daş üstünə qoyulmadığı, əksinə, dağıdıldığı yaşayış məntəqələrində böyük quruculuq işlərinə başlamışıq. Xankəndiyə futbol bayramı ilə qayıtmaqla da bütün dünyaya mesaj veririk ki, sülh istəyirik!

Bəli, biz Xankəndiyə həyatı qaytardıq. Bəli, biz Xankəndiyə xoş niyyətlə, futbol bayramı ilə qayıtdıq.

Xankəndiyə xoş gəldik!



# PREZİDENT “Turşsu”da olub

## Prezident İlham Əliyev Şuşa rayonunun bir sıra məntəqələrində olub. Dövlət başçısı həmçinin Xocalı rayonunun Naxçıvanlı kəndinə də baş çəkib.

Prezident İlham Əliyev Şuşa rayonundakı “Saxsı” bulağında olub. Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, bulaq Şuşa şəhərinin şimal-qərb hissəsində, təxminən beş kilometr məsafədə, Şuşa-Laçın yolunun üzərində yerləşir. Bulağın suyu tərkibinə görə çox keyfiyyətli olduğu üçün daim şuşalıların və şəhərin qonaqlarının diqqət mərkəzində olub. Əvvəllər qayadan süzülən su sonradan metal boruya salınıb və daim axır. Bulaq hazırda mövcuddur. Şuşa şəhəri işğal olunanadək bulağın üstündə restoran inşa edilib. Bəzi məlumatlara görə, bulaq metal boruya salınmamışdan əvvəl qayadan çıxan su qədim saxsı borudan süzülüb gəldiyi üçün bulağa insanlar arasında “Saxsı” bulaq adı verilib və bu ad günümüzə qədər gəlib çatıb. Şuşa şəhəri işğal ediləndən sonra ərazi uzun illər baxımsız qalıb, restoranın binası yarıuçuq vəziyyətə salınıb.





### ŞUŞA ŞƏHƏRİNDƏN 17 KİLOMETR CƏNUB-QƏRBDƏ

Prezident Şuşa rayonundakı “Turşsu” bulağında da olub. Məlumat verilib ki, meşənin daxilində mineral su mənbəyi olan “Turşsu” bulağı Şuşa şəhərindən 17 kilometr cənub-qərbdə, Şuşa-Laçın yolundan bir qədər aralı, Zarıslı çayının sahilində 1700 metr hündürlükdə çıxır. Turşsu qəsəbəsinin yaxınlığındakı bu bulağın suyu fasilələrlə - təxminən bir saatdan da artıq müddətdən bir axır. Bulağın suyu faydalı mikroelementlərlə, əsasən karbon, hidrogen-karbonad, maqnezium, natrium, kalsiumla zəngindir. Minerallaşma dərəcəsi 2,4 qr/l, temperaturu 5-10 dərəcə C-dir. Bu su ürək-damar, qan azlığı, qaraciyər, öd yolları, öd kisəsi, mədə-bağırsaq və böyrək xəstəliklərindən əziyyət çəkənlər üçün müalicəvi xüsusiyyətlərə malikdir. Rayon ərazisində suyu minerallarla zəngin olan digər bulaqlar da var.

### 353 AİLƏNİN QEYDİYYATDA OLDUĞU QƏSƏBƏ

Prezident Şuşa rayonunun Turşsu qəsəbəsinə də səfər edib. Turşsu qəsəbəsi işğaldan əvvəl Şuşa rayonunda Şuşa şəhərindən sonra azərbaycanlıların ən sıx yaşadığı ikinci yaşayış məntəqəsi olub. Qəsəbə 1992-ci il mayın 15-də işğal edilib. 1989-cu ildə aparılan siyahıyaalmaya əsasən, qəsəbədə 755 nəfər yaşayıb. İnfrastruktur işğal dövründə tam dağıdılıb.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Hazırda Turşsu qəsəbəsində 353 ailə - 1403 nəfər qeydiyyatdadır.

Prezident İlham Əliyev Xocalı rayonunun Naxçıvanlı, Pirlər, Xanabad, Pircamal kəndlərinə də səfər edib.

# QARABAĞA HƏYAT QAYIDIR



**Prezidentin işğaldan azad edilmiş və Azərbaycanın suveren hüquqlarının tam bərpa olunduğu ərazilərə səfərləri regional sülhə töhfə baxımından diqqət çəkir. Qısa müddətdə Xankəndiyə edilən ikinci səfər və verilən əmin mesajlar gələcəyə nikbin baxmaq üçün əsaslar verir.**

AQŞİN KƏRİMOV

Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva Xocavənd, Xocalı, Şuşa və Xankəndiyə səfər edib. Dövlət başçısı regionda aparılan tikinti işləri ilə tanış olub, antiterror əməliyyatları nəticəsində Azərbaycanın suverenliyini bərpa etdiyi ərazilərdə olub.

İlham Əliyev səfəri çərçivəsində Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandalarının matçını da izləyib. Prezident İlham Əliyev Xankəndi stadionunda keçirilən oyundan əvvəl çıxış edərək Azərbaycanın yaratdığı reallıqların davamlılığını və sistemliyini vurğu edən tezisləri bir daha səsləndirib. Qısa müddətdə Xankəndiyə edilən ikinci səfər və verilən əmin mesajlar gələcəyə nikbin baxmaq üçün əsaslar verir.

### ÖZÜNDƏ BİR NEÇƏ KOMPONENTİ BİRLƏŞDİRƏN STRATEGİYA

Konseptual olaraq Prezidentin işğaldan azad edilmiş və Azərbaycanın suveren hüquqlarının tam bərpa olunduğu ərazilərə səfərləri regional sülhə töhfə baxımından diqqət çəkir. Prezident daim sülh mesajları verir. Sezmək çətin deyil ki, İlham Əliyevin strategiyası bir neçə vacib komponenti özündə birləşdirir. Birinci növbədə, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təhlükəsizlik və güc strukturlarının xidməti fəaliyyətləri təmin edilir. Buna nail olan Azərbaycan sxemə uyğun olaraq, növbəti mərhələyə keçir. İkinci mərhələdə regionda misli görünməmiş quruculuq, bərpa işləri vüsət alır, infrastruktur yaradılır. Üçüncü mərhələ isə yuxarıda qeyd edilən iki mərhələ ilə paralellik təşkil edir ki, bu da Qarabağa və Şərqi Zəngəzura əhalinin qayıdışı prosesidir.

İlham Əliyev üçün bu işdə fasilə yoxdur. Fasiləsizlikdən danışarkən Prezidentin səfərlərində iki məqamın simvolik əhəmiyyətinə də toxunmaq lazımdır. Fikir versək görürük ki, səfərləri zamanı bəzən Prezident hərbi uniforma geyinir. Bu, onun Ali Baş Komandan kimi hərbi ritorikasını vurğulayır. Hərdən isə Prezident mülki geyimlərdə səfərlər gerçəkləşdirir ki, bu da onun regional sülh, quruculuq üçün verdiyi mesaj kimi başa düşülə bilər.

Ümumilikdə Prezident kompleks şəkildə:

- Görülən işlərlə tanış olur,
- Təhlükəsizlik sisteminin etibarlılığını şəxsən özü yoxlayır,
- İşğaldan zərər çəkmiş iqtisadiyyatın dirçəlməsi üçün həyati əhəmiyyətli xətləri çəkir.

## AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ İNTENSİV SƏFƏRLƏR

Bir az da geniş yanaşsaq, deyə bilərik ki, İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə intensiv səfərləri Azərbaycanın regional sülhün təmini üçün geostrateji genişlənmə siyasətinin izində xüsusi əhəmiyyət kəsb edir.

İlham Əliyev beynəlxalq hüququn normativlərini diqqət mərkəzində saxlayaraq həm xarici, həm də daxili çağırışları reallaşdırır və sülh konfiqurasiyasında səmimi olmaq istəyənləri konstruktiv müzakirələr masasına dəvət edir.

Bu masada olmaq istəyənlər Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin tələb və ehtiyaclarını mütləq şəkildə nəzərdə saxlamalıdırlar. Əks təqdirdə kənar qüvvələrin regional arxitekturada iştirakı minimallaşır. Dövlət başçısının səfərlərini qeyd etdiyimiz məqamlar işığında şərh edəndə görmək olur ki, Azərbaycan regiondakı sülhün kövrəkliyini daimi möhkəm əsaslarla əvəzləməyi qarşıya məqsəd qoyur. Məsələn, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, nəqliyyat, idman infrastrukturlarının yaradılması, "Böyük qayıdış"ın həyata keçirilməsi Azərbaycanın sülh quruculuğunda nə qədər səmimi olduğunu göstərən başlıca faktorlardan biridir.

### TƏXRİBATLAR FİASKO İLƏ NƏTİCƏLƏNƏCƏK

Təbii ki, Azərbaycanın regionda yüksələn profilini həzm edə bilməyən dövlətlər var və hazırda ən çox canfəşanlıq Fransa tərəfindən nümayiş etdirilir. Deməli, hipotetik də olsa təhdidlər qalmaqdadır və bu təhlükəli tendensiyalarla Azərbaycanın sülh trayektoriyasındakı təşəbbüslərini əngəlləmək cəhdləri gələcəkdə də davam edə bilər.





Ancaq bu cəhdlərin fiaskoya uğrayacağını söyləməyə bir xeyli əsas var. Ən vacibi Azərbaycan Ermənistan üzərində qələbə qazanıb və bunun məntiqi davamı olaraq Qarabağda separatçılığın kökünü qurudub. Aydındır ki, bundan sonra hansısa gizli gündəliklə regiona daxil olmağın önünə qalın bir sədd çəkilir. Bir az da dəqiq desək, bununla da Azərbaycana qarşı sövdələşmə imkanları göyə sovrulur. Münaqişə zamanında Azərbaycan sərhədlərindən işğal edilmiş ərazilərə giriş-çıxışlar baş verirdi və nəticədə regionda ambisiya formalaşdırıb Bakını buna tabe etdirmək istəyənlər məxfi planlarını dövriyyədə saxlayırdı. İndi isə işğaldan azad edilmiş ərazilərə qeyri-qanuni girişlər mümkünsüzdür.

Regiona əhali köçü və bölgədəki infrastruktur layihələri isə təhlükəsizliyin iqtisadi, mülki, ticari, sosial əsaslarını ərsəyə gətirir. Buna görə demək olar ki, regiondakı reallıqları dəyişmək üçün Azərbaycana qarşı üstünlük planlaşdırıb ambisiyalarını təmin etmək istəyənlərin məqsədləri puça çıxacaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az



# ERMƏNİ KİLSƏSİ: SİLAHLI REVANŞİZM MƏNBƏYİ

Erməni keşişləri separatizmə, bölücülüyə aludə olduqları qədər də rəzil və qorxaqdırlar. Bu gün Ermənistanda kilsələrdə, müxtəlif tədbirlərdə qisas hissi ilə alovlansalar da, Qarabağdan ilk qaçanlar da məhz onlar oldular.

RÜSTƏM QARAXANLI

Erməni Apostol Kilsəsi azərbaycanlıların tarixi vətənimiz - Qərbi Azərbaycandan zorla deportasiyası və Qarabağda aqressiv separatizmin formalaşmasında başlıca rol oynayan ünsürlərdən biri, bəlkə də birincisi olub. Erməni keşişləri terror və qətllərlə müşahidə olunan torpaqlarımızın işğalında ASALA və "Daşnaksütyun" kimi terrorçu və cinayətkar qruplaşmalarla eyni yolu keçib. Dünyanın heç bir yerində, heç bir dinində erməni kilsəsi qədər bölücülüyə, separatizmə, kriminala meylli teokratik qurum tapmaq mümkün deyil. Erməniliyin dövlət yaratmaq istəyi tarix boyu kilsənin ətrafında ərsəyə gəlib. Dağınıq və pərakəndə şəkildə yaşayan, dövlətçilik ənənəsi olmayan, ömrü boyu dövlət arzusunda olan bu xalqın özünün də formalaşması kilsə ilə ayrılmaz şəkildə bağlıdır.

### DİNİ EMİSSARLARIN OYNADIĞI ROL

Erməni kilsəsinin dini ayinlərində mistika və miflərə inam, aqressiyaya, bölücülüyə, cinayətə təhriketmə xüsusi rol oynayır. XIX əsrin əvvəllərindən etibarən Azərbaycan torpaqlarında məskunlaşdırılmağa başlayan ermənilər əvvəl Rusiya imperiyasının isti münasibətindən, sonra isə sovetlərin himayəsindən yararlanaraq Qafqaz Albaniyasının dini irsini ələ keçirməyə başlayıblar. Kilsənin aləhiddə rol oynadığı bu proses əzəli yurdumuzun işğalı hesabına erməni mövcudluğunun genişlənməsi ilə müşahidə olunub. Bunu biz Qarabağın və Şərqi Zəngəzurun işğalında da aydın şəkildə gördük.

Müzəffər ordumuzun zərbələrinə tab gətirməyib 44 günə kapitulyasiya edən Ermənistanda revanşist hisslərin hansı sürətlə yüksəldiyini son üç ildə izlədiyimiz proseslər də göstərir. Revanşizmin mənbəyi rolunda həmişə olduğu kimi, yenə də kilsələr çıxış edir. Bu günlərdə erməni kilsəsinin Tavuş yeparxiyasının keşişi Baqrat Qalstanyan ayin zamanı ənənəyə sadiq qalaraq müharibəyə çağırış məzmunlu siyasi bəyanatlar verib. "Bəli, mən revanşistəm və ömrümün son saniyəsinədək belə olacağam" deyən Qalstanyanın sözlərinə görə, cəmi bir neçə il öncə "Artsax"da hər kəs "xoşbəxt ömür sürür, ibadətlərini edirdi": "Tanrımız deyir ki, qisasımı çox gözləmək lazım gəlməyəcək. Biz dəyişməliyik, qayıtmaq məcburiyyətindəyik. Evimizin bərpası bizim gündəlik qayğımız olmalıdır... Bu, nifrət deyil, məhəbbət, işə sadiqlik, sonsuz inam, qurban vermə, kişilikdir".

Tavuş keşişinin bu bəyanatı özbaşına verdiyini düşünmək sadəlövhlük olardı. Bazar ayinləri kilsəyə ən çox adamın gəldiyi andır. Eçmiədzindəki əsas kilsə ilə razılaşdırılmadan qisas hissləri ilə dolu, müharibəyə çağırış və başqa dövlətin ərazisinə qəsd məzmunlu cümlələrin işlədilməsi mümkün deyil.

## ERMƏNİ KİLSƏ KAHİNLƏRİNİN VƏRDİŞİ

Erməni keşişləri tarixləri boyu o qədər qəsdə, işğala, separatçılığa və oğurluğa meylli olublar ki, bu ab-hava sanki onların sifət cizgilərinə, dini geyimlərinə, mistika ilə dolu ayinlərinə sirayət edib. Erməni kilsə kahinlərinin Osmanlı Türkiyəsinə qarşı cinayətkar əməllərin iştirakçısı olmalarına dair yüzlərlə tarixi fakt var. 1828-ci ildən etibarən erməni keşişləri, kilsədə formalaşdırılmış xüsusi dəstələr Rusiyanın Türkiyəyə qarşı bütün hərbi əməliyyatlarında iştirak ediblər.

"Artsax"dakı "xoşbəxt həyat"dan danışan keşiş Baqrat yol yoldaşlarının Azərbaycan torpaqlarındakı hərbi cinayətləri, müsəlman abidə və ibadətgahlarımızı yer üzündən silmə əməllərini nəzərdə tutur. Şuşanın işğalına dair kadrlarda separatçı-kriminal xuntanın əsas simalarından olan keşiş Parqevin əlində kömür tarixi abidələrimiz və binalarımız üzərində erməni dilində yazılar yazdığını unutmamışıq. Parqevin xalqımıza və dövlətimizə qarşı törədilmiş hərbi cinayətlərin, silahlı qiyamın əsas iştirakçılarından biri olması da sirr deyil. Bu gün ABŞ-də yerli erməni kriminal ünsürlərlə sıx ünsiyyətdə yaşayan Parqevin hansı cinayətlərdə əlinin olması barədə erməni mediası və blogerləri xeyli yazılar dərc ediblər.

Əlində silah fotoları yayılmış Xudavəng keşişi Ovanes Ovannisyanın Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirakına dair də sübutlar var. Ovanes keşiş olmadan öncə Xocavənddə, Ağdərənin Vəngli kəndində azərbaycanlılara qarşı əməliyyatların iştirakçısı olub. Digər kilsə nümayəndəsi - Əskəran keşişi olmuş Mesrop Mkrtçyan da vaxtilə sinəsinə döyüb "Artsax"ı tərk etməyəcəyini deyir, silahlı mübarizə sözü verirdi. Ancaq erməni keşişləri separatizmə, bölücülüyə aludə olduqları qədər də rəzil və qorxaqdırlar. Bu gün Ermənistanda kilsələrdə, müxtəlif tədbirlərdə qisas hissi ilə alovlansalar da, Qarabağdan ilk qaçanlar da məhz onlar oldular.





## REVANŞİZM VARSA, SÜLHDƏN DANIŞMAQ ƏBƏSDİR

Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumunda çıxışında bildirib ki, Ermənistanda revanşizm meylləri olduğu halda yekun sülh barədə danışmaq risklidir. Erməni revanşizminin baş qaldırmayacağına dair möhkəm təminatlar olmalıdır. Bu gün keşiş Baqrat kimilərinin revanşdan danışması, dini ayin iştirakçılarını qisasa həvəsləndirməsi onu göstərir ki, Ermənistan cəmiyyəti əsrlər boyu yoluxduğu virusdan ya qurtula bilmir, ya da istəmir. Bu isə ilk növbədə Ermənistandakı ürkək dövlətçiliyin süqut təhlükəsi ilə üz-üzə olduğunun göstəricisidir. Ermənilərin niyə tarixi boyu müstəqil yaşamaq iqtidarında olmadıqlarına dair çoxsaylı sualların yeganə cavabını bu reallıqda axtarmaq lazımdır.



# ERMƏNİSTAN RUSİYANIN ƏSARƏTİNƏ QAYIDIR

**Ermənistanın elektrik şəbəkəsi Rusiyaya məxsus şirkətin nəzarətindədir. Eyni zamanda, əsas enerji istehsal edən İES və SES-lərdə də söz sahibi Moskvadır. Paşinyan ölkənin enerji təhlükəsizliyini təmin etmək üçün heç nə edə bilmir.**

FUAD ABASOĞLU

Paşinyan hökuməti Ermənistanın enerji təhlükəsizliyini təmin etmək, yeniləmək üçün müxtəlif proqram və layihələr irəli sürüb. Amma bütün bunlar kağız üzərində qalıb. Bununla yanaşı, Ermənistan hökumətinin Moskva əleyhinə atdığı addımlar da rus siyasi elitası tərəfindən xoş qarşılanmayıb.

### İRANLA LAYİHƏ "SUYA DÜŞÜB"

2023-cü ilin əvvəlində erməni hökuməti bəyan etmişdi ki, İranla inşa edilən üçüncü yüksək gərginlik xətti il sonuna qədər istifadəyə veriləcək. İlin bitməsinə bir neçə gün qalsa da, ortada heç bir nəticə yoxdur. Əksinə, verilən sözün yerinə yetirilməməsi cəmiyyətdə gərginliyə səbəb olub. Sözügedən layihə hələ 2019-cu ildən başlasa da, hər il müxtəlif bəhanələrlə təxirə salınıb. Görünür, Paşinyan komandasının digər vədləri kimi bu layihə də kağız üzərində qalacaq. İran isə bu məsələdə susqunluğunu qoruyur. Rəsmi Tehranın başı Rusiya və Azərbaycanla cari ildə reallaşdırılması planlaşdırılan elektrik enerjisi ixracı layihəsinə qarışıb.

### ERMƏNİSTANIN ENERJİ SEKTORUNDA XAOS HÖKM SÜRÜR

Hazırda Ermənistanın enerji sektorunda xaos hökm sürür. Daim investisiya tələb edən sahəyə hökumət son illər bir dram da xərcləməyib. Yeniliklər, innovasiyalar, təmir işləri sıfır səviyyəsindədir. Hakim komanda tərəfindən irəli sürülən layihələr isə sadəcə kağız üzərindədir. Həddən artıq köhnələn şəbəkəyə pul yatırmaq hakimiyyətin ağlından belə keçmir. Artıq Ermənistanın bir sıra ərazilərinə qar yağıb. Belə vəziyyətdə köhnə şəbəkənin nə qədər dözümlü olacağı, yüklənmələrə tab gətirib-gətirməyəcəyi sual altındadır.



### NƏ İRANDAN QAZ ALAN VAR, NƏ DƏ ENERJİ SATAN

Paşinyan komandasının elektrik enerjisi ixracı ilə bağlı vədi də yerinə yetirilməyib. İqtisadiyyat və Energetika nazirlikləri hər həftə mətbuata ciddi işlərin görüldüyü barədə ağızdolusu məlumatlar versələr də, ortada nə fal var, nə də yumurta. İqtisadiyyat naziri Vahan Kerobyan qeyd etmişdi ki, İrandan təbii qaz alınacaq, bu qazla elektrik enerjisi istehsal ediləcək və onun qonşu ölkələrə satışı həyata keçiriləcək. Amma hələlik İrandan nə qaz alan var, nə də ki, enerji satan. Erməni hökuməti daxili tələbatı ödəmək üçün baş sındırır.

## ABŞ ÜÇÜN TƏCRÜBƏ DOVŞANI OLMAQ TƏHLÜKƏSİ

Bu yaxınlarda Birləşmiş Ştatlarla razılaşdırılan kiçik modul tipli atom elektrik stansiyaları məsələsini erməni hökuməti az qala əsrin enerji müqaviləsi kimi təqdim edirdi. Amma çox qısa müddət sonra bu layihənin də fiaskoya uğradığı üzə çıxıb. Vaşinqtonun təklif etdiyi modul zavodların tikintisi ABŞ-nin özündə qadağan edilib. Sınaq mərhələsini belə keçməyən layihənin ciddi təhlükəsizlik problemləri var. Rəsmi İrəvan artıq anlayıb ki, bu məsələdə okeanın o tayı üçün təcrübə dovşanı rolunu oynaya bilər. Bunu son günlər erməni KİV-lərində sözügedən layihə ilə bağlı yer alan tənqidi yazılardan da görmək mümkündür.

Ümumilikdə Rusiya ilə münasibətləri pisləşdirmək Ermənistanın enerji sektoruna ciddi ziyan vurub. Kremlin qəzəbi qiymət artımlarında özünü göstərə bilər. Hətta erməni ekspertlər də etiraf edirlər ki, növbəti ildə belə bir təhlükə ilə rastlaşmaq riski var. Hazırda Moskva İrəvana 1000 kubmetr qazı dünya bazarı qiymətindən çox aşağı, yəni 175 dollara satır. Eyni zamanda, AES üçün lazım olan uran da qat-qat aşağı qiymətə tədarük edilir. Hakim komanda isə gələn ilin qiymətləri üçün qarşı tərəflə danışıqlardan narazılığını gizlətmir. 2024-cü ildə idxal edilən təbii qazın və zənginləşdirilmiş uranın qiymətinin kifayət qədər artacağı ehtimalı yüksəkdir.




## PAŞİNYAN PUTİNİN DƏVƏTİNƏ BU DƏFƏ YOX DEYƏ BİLMƏDİ



Atdığı addımların təmsil etdiyi ölkəni uçuruma sürüklədiyini anlayan Nikol Paşinyan deyəsən Rusiya ilə münasibətləri normallaşmaq məcburiyyətində qalacaq. Ötən həftənin şənbə günü Gümrü şəhərində hakim partiyanın iclasında baş nazir və XİN rəhbəri Ararat Mirzoyan addımlarının Qərb tərəfindən düzgün dəyərləndirilmədiyindən gileyləniblər. Qeyd edilib ki, Rusiya ilə münasibətlərdə normallaşmaya keçməyin vaxtı çatıb. Yaxın vaxtlarda Nikolun Rusiyanın söz sahibi olduğu iclaslarda və görüşlərdə iştirak edəcəyi də istisna edilmir.

### RUSİYA AES-Ə NƏZARƏTİNİ DAVAM ETDİRƏCƏK

Ermənistanın Rusiya qarşısında əyilməsi artıq AES sahəsində özünü büruzə verir. İki ölkə arasında Ermənistan AES-nin 2 saylı enerji blokunun istismar müddətinin yenidən uzadılması üzrə tədbirlər planının həyata keçirilməsi üçün çərçivə müqaviləsi imzalanıb. Bundan əlavə, "Rosatom Servis" stansiyaya 2036-cı ilə qədər xidmət göstərmək barədə müqavilə imzalayıb. Layihənin dəyəri isə 65 milyon dollardır. Bu günə qədər enerji sektoruna bir dram xərclənmədiyini nəzərə alsaq, pulun kim tərəfindən ödəniləcəyi məlumdur. Ermənistanda daxili enerji tələbatının böyük hissəsinin AES tərəfindən ödənildiyini nəzərə alsaq, onda ölkənin enerji təhlükəsizliyinin hələ uzun müddət Rusiyanın nəzarətində olacağı aydınlaşır.

# ÜZVLÜK, YOXSA SADƏCƏ VƏD?



Qərb postsovet məkanına daxil olan ölkələri nəzarətdə saxlamaq üçün bu cür şirnikləndirici vədlər verir. Hədəf bölgədə mövqelərini gücləndirmək və Rusiyanı zəiflətməkdir.



AZƏR NURİYEV

Avropa İttifaqı (Aİ) uzun sürən götür-qoydan sonra nəhayət müvafiq qərar qəbul etməyə cürət edib. Gürcüstana namizəd statusunun verilməsi, Ukrayna və Moldovanın üzvlüyə qəbul ilə bağlı danışıqlara başlanılması son günlərin ən aktual mövzusudur. Bəs Avropa bu qərarı verməkdə nə qədər səmimidir? Həqiqətənmi Aİ bu üç ölkəni öz sıralarına daxil edəcək? Tbilisidə bu hadisəni atəşfəşanlıqla qeyd edən gürcülər görəsən neçə il gözləməli olacaqlar? Və yaxud qalan iki ölkə - Moldova və Ukrayna neçənci ildə üzvlük barədə danışıqlara ümid edirlər? Sual çox, cavab isə azdır. Avropa belə vədləri çox verib və ortada bizə yaxşı tanış olan Türkiyə nümunəsi var. 60 ildən də artıqdır ki, Türkiyə Aİ-nin qapısında gözləyir. Üzvlüklə bağlı bütün şərt və tələbləri yerinə yetirsə də, ortada nəticə yoxdur.

Üzvlüklə bağlı yeni qərarlar qəbul etməklə Avropanın hədəfi bəllidir. Bu dövlətləri Rusiya təsirindən tamamilə uzaqlaşdırmaq. Gürcüstanla bağlı konkretliyin arxasında isə Tbilisidə son vaxtlar artan rusiyameyilliyi azaltmaqdır. Moldova və Ukrayna artıq Moskva ilə bağlı siyasətlərini müəyyənləşdiriblər, bu səbəbdən onlardan narahat deyillər.

### ERMƏNİSTAN DA ÜMİDLƏNİB

Maraqlıdır ki, Gürcüstanla bağlı qərar Ermənistanı da ümidləndirib. Rusiya ilə münasibətlərini gərginləşdirmək siyasəti yürüdən İrəvan ümid edir ki, Qərbdə bunu qiymətləndirəcəklər. Bu səbəbdən, ritorikanı bir az da sətləşdirmək gərəkdir. Görünür, Qərbdən də bu istiqamətdə müəyyən mesajlar alıblar. Yəni ermənilər nə qədər sərt olsalar, antirusiya addımları atsalar, şans da artacaq. Bu mövqeni erməni politoloqu Aleksandr İsgəndəryan da bölüşür. Onun sözlərinə görə, Ermənistanın Avropaya inteqrasiyası onun Rusiya ilə qarşıdurmasından asılı olacaq. "Aydındır ki, nə Moldova, nə Ukrayna, nə də Gürcüstan indiki formada Avropaya inteqrasiya mərhələsi üçün heç bir kriteriyaya tam cavab vermirlər. Bu, siyasi qərardır və sırf Ukrayna müharibəsi və Avropa ilə Rusiya arasındakı qarşıdurmaya görə qəbul edilib. Avropa İttifaqının bu qədər açıq siyasi mövqeyini xatırlamıram. Bu, tamamilə fərqli bir vəziyyətdir. Ermənistanın bu prosesdə iştirak edib-etməyəcəyi və bunun hansı formada olması Ukrayna müharibəsindən və Rusiyanın Avropa ilə münasibətindən asılıdır", - deyə İsgəndəryan vurğulayıb.



## QƏRB GÜRCÜSTANDA MÖVQELƏRİNİ GÜCLƏNDİRMƏYƏ ÇALIŞIR

Qayıdaq Gürcüstana. Maraqlı olan torpaqları işğal edilən Gürcüstana statusun verilməsidir. Halbuki qurum əvvəlki bəyanatlarında və şərtlərində bunu qəbul etmirdi. Ehtimallara görə, bu addımla bir neçə hədəf güdülür. Qərb Rusiyanın işğal etdiyi Abxaziya və Cənubi Osetiyanı bu yolla Gürcüstana inteqrasiya etməyi hədəfləyir. Buna nail olacağı isə az ehtimal edilir. Bu əyalətlər Rusiyaya tam bağlıdır və ondan heç ayrılmağı da düşünmürlər.

Gürcü politoloq Nika Çitadzenin sözlərinə görə, Aİ Avropayönlü çoxluğu sakitləşdirmək üçün onlara namizəd ölkə statusu verib. Amma gələcəkdə Avropaya inteqrasiya iqtidarla müxalifət arasında dialoqun qurulması ilə əlaqələndirilməlidir. Ekspert Şota Apxaidze də hesab edir ki, Qərb Gürcüstanda mövqelərini gücləndirməyə çalışır: "Tbilisi Aİ və ABŞ-nin təsirindən çıxmağa başlayıb. Gürcüstan hakimiyyəti Qərb tərəfdaşları ilə açıq şəkildə qarşıdurmaya gedib, bu da əvvəllər heç vaxt baş verməyib. Nəticədə Brüssel ölkəni itirməkdən qorxdu və qəzəbini mərhəmətə çevirdi".



Nika Çitadze

## UKRAYNA VƏ MOLDOVA HƏLƏ DƏ GÖZLƏYİR

Ukrayna və Moldovaya gəldikdə, konkret Kiyevin Aİ ilə danışıqlara daxil olması uğrunda mübarizəsi Brüsseldə keçirilən sammitin son dəqiqəsinə qədər davam edib. Aİ dövlət başçılarının üzvlük danışıqlarına başlamaq qərarı hər iki ölkəyə yaxşı şans versə də, onları ciddi daxili problemlərin həlli zərurəti ilə üzləşdirir. Moldovanın Fəaliyyət və Həmrəylik Partiyasından olan Oazu Nantoi hesab edir ki, sakinlərin ən azı 55%-i ölkələrini Aİ-də görmək istəyir. Onun sözlərinə görə, bir neçə il davam edə biləcək danışıqlar zamanı avrointeqrasiya dəstəyinin özəyi Moldovada möhkəmlənəcək. Bunun üçün Ukraynada sülh lazımdır. Hər iki ölkənin Aİ-yə üzvlük yolunda keçəcəyi çətinliklərə gəlincə, yerli müşahidəçilər hesab edir ki, ən çətini cəmiyyətin özündə stereotipləri yıxmaq olacaq. Daha çox da Moldovada. Məsələn, son bir neçə ildə bu ölkədə qanunun aliliyinə və məhkəmə sisteminə etimadsızlıq yaranıb. Hər iki ölkədə korrupsiya, məhkəmə sistemində problemlər var.

Moldovanın Avropaya inteqrasiya yolunda əsas maneələrdən biri qondarma Dnestryanı məsələsi ola bilər.

Bir il yarım ərzində Moldovada həm parlament, həm də prezident seçkiləri keçiriləcək. Ölkədə hakimiyyət dəyişsə, Kişineunun Avropaya inteqrasiya kursundan əl çəkərək "üzünü Moskvaya çevirməsi" təhlükəsi yarana bilər.

Beləliklə, Avropanın vəd etdiyi üzvlük məsələsinin tez bir zamanda baş tutacağını gözləmək olmaz. Qərb postsovet məkanına daxil olan ölkələri nəzarətdə saxlamaq üçün bu cür şirnikləndirici vədlər verir. Hədəf də bəllidir, bölgədə mövqeyini gücləndirmək və Rusiyanı zəiflətmək.



Oazu Nantoi

## KİÇİK BANKLARIN BAĞLANMASI HANSI NƏTİCƏLƏR VERƏ BİLƏR?

# Bank sektorumuz HARA GEDİR?

Azərbaycanda bankların sayında azalma müşahidə edilir. Son bir ildə ölkədə üç bankın lisenziyası ləğv olunub. Bu proseslər bank sektorunun gələcəyi üçün nələr vəd edir? Ekspertlər hesab edirlər ki, yaranan boşluq böyük bankların filial şəbəkəsi tərəfindən kompensasiya ediləcək.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son bir ildə Azərbaycanda üç bank fəaliyyətini dayandırıb. Başqa sözlə desək, lisenziyaları ləğv olunub. Ötən həftə daha bir bank da bağlanıb. Beləliklə ölkədə fəaliyyət göstərən bankların sayı 23-ə düşüb. Hələ bir neçə bankın da bağlanma təhlükəsi ilə üz-üzə qalması barədə də iddialar var. Banklar bu şəkildə bağlana-bağlana gedərsə, bu, bank sektorumuz üçün hansısa problemlər yarada bilərmi?

### "BANKLARIN SAYININ KƏSKİN ŞƏKİLDƏ AZALMASI YAXŞI ƏLAMƏT DEYİL"

Bank məsələləri üzrə ekspert Xəyal Məmmədli deyir ki, bankların sayı üçün ölkənin böyüklüyünün, yaxud kiçikliyinin fərqi yoxdur: "Ərazisi Azərbaycan qədər olan elə Avropa ölkəsi var ki, orada bank sayı bizdən azdır. Eləsi də var ki, Azərbaycandakı bankların sayından 3-4 dəfə çoxdur. Yəni burada tənzimlənmə ölkənin ərazisinə, yaxud əhali sayına görə deyil. Bu, daha çox ondan asılıdır ki, ölkədə maliyyə, bank sistemi necə qurulub, Mərkəzi Bank dövlət səviyyəsində bu sistemi necə tənzimləyir?"

X.Məmmədli bildirir ki, bankların sayının kəskin şəkildə azalması yaxşı əlamət deyil: "Bankların sayının çox və ya az olmasının hansısa bir ciddi fəsadı yoxdur. Çünki hər hansı bir sektorda fəaliyyət göstərən müəssisənin sayı çox olursa, bu zaman rəqabət mühiti daha da yaxşılaşır, istehlakçılar üçün qiymətlər daha da ucuzlaşır. O baxımdan düşünürəm ki, bankların sayının kəskin şəkildə azaldılması məsələsi olmamalıdır. Azərbaycanda dövlətin də belə bir siyasəti yoxdur".





### RİSK FAKTORUNU NƏZƏRƏ ALMIRLAR

Bankların bağlanması məsələsinə toxunan ekspertin sözlərinə görə, bu hal yalnız banklar normalara cavab vermədikdə baş verir: "Ölkəmizdə banklar say çoxluğuna görə bağlanmır. Bankların fəaliyyətləri Mərkəzi Bankın prudensial normalarına cavab vermədiklərinə görə dayandırılır. Heç vaxt nə Mərkəzi Bank, nə də dövlət tərəfindən "bankların sayı artıqdır, ona görə bağlayırıq" deyilməyib. Əgər göstəriciləri qoyulmuş normativə cavab verirsə, bu zaman bank fəaliyyət göstərəcək. Korporativ idarəetmə düzgün qurulmur, prudensial normalara riayət olunmur, risk məsələləri düzgün tənzimlənmir, bank normal şəkildə idarəetməni qurmur, riskli şəkildə kreditlər verilir, onlar qayıtmır, bankın məcmu kapitalı aşağı düşür və bununla da problemlər başlayır. Bu zaman da Mərkəzi Bank lisenziyasını ləğv edir. Həmçinin, banklar özləri fəaliyyətlərini dayandırmırlar. Azərbaycanda hələ heç bir bank özünü müflis elan etməyib. Bütün hallarda Mərkəzi Bank normalara cavab verməyən bankların lisenziyasını dayandırıb".



Xəyal Məmmədli

## YARANAN BOŞLUQLAR BÖYÜK BANKLAR TƏRƏFİNDƏN DOLDURULUR

X.Məmmədli həmçinin qeyd edir ki, indiki halda Azərbaycanın bank sektoru üçün narahatlığa əsas yoxdur: "Azərbaycanda ən azından Beynəlxalq Bank kimi dövlət bankı, həmçinin böyük sistem əhəmiyyətli banklar var. O banklar həmişə çalışacaq. Əgər kiçik müəssisələrin fəaliyyəti dayanacaqsa, onun əvəzinə böyük bankların filial şəbəkəsi daha da genişlənəcək. İkinci bir tərəfdən, rəqəmsallaşma getdikcə sürətlənir, məsafədən bank xidmətləri göstərilir. Yəni böyük və sistem əhəmiyyətli banklar tərəfindən yaranan boşluqlar doldurulur".



Asif İbrahimli

### BU PROSES QANUNLA TƏNZİMLƏNMİR

İqtisadi məsələlər üzrə ekspert Asif İbrahimli deyir ki, dünya praktikasında bankların sayını müəyyən edən normalar mövcud deyil: "Bankların sayı hansısa qanunla, reqlamentlə, metodla tənzimlənmir. Ümumiyyətlə, hansısa ölkədə bankaların yaradılması adətən ölkənin iqtisadi vəziyyətindən, maliyyə siyasətindən asılı olaraq formalaşdırılır. Məsələn, kiçik bir dövlət ola bilər ki, hansısa Latın Amerikasında yerləşir, ərazi baxımından Azərbaycandan 3 dəfə kiçikdir, amma orada banklar çoxdur. Bu da ölkənin maliyyə siyasətindən və iqtisadiyyatından asılı olan məsələdir. Bununla bağlı dünya praktikasında da hər hansı bir tənzimləmə yoxdur".

### KREDİT FAİZLƏRİ DAHA DA YÜKSƏLƏ BİLƏR

A.İbrahimlinin fikrincə, onsuz da ölkəmizdə bank sektorunda xarici banklar azdır. Yerli banklar da bağlanarsa, insanlar üçün müəyyən çətinliklər yarana bilər: "Bankların sayının çox olmasının üstün cəhəti odur ki, rəqabət mühiti formalaşdırılır. Azərbaycanın isə özünəməxsus iqtisadi modeli olduğu üçün bankların formalaşdırılmasında, onların sayının az və ya çox olmasında hər hansı bir fərq görmürəm. Amma gələcəkdə digər bankların da fəaliyyətində problemlər yaranarsa, lisenziyaları ləğv edilərsə, bu, bank sektorunda rəqabətin ciddi şəkildə pozulmasına gətirib çıxara bilər. Məsələn, belə olduğu halda ölkədə onsuz da yüksək olan kredit faizləri bir az da arta bilər".



LİDER Kaspi 23 DEKABR ŞƏNBƏ 2023 9

## İLHAM ƏLİYEV BEYNƏLXALQ SƏVİYYƏDƏ QƏBUL EDİLƏN, SÖZÜ EŞİDİLƏN AZSAYLI DÖVLƏT XADİMLƏRİNDƏNDİR

# BÖYÜK DÖVLƏTİN BÖYÜK LİDERİ





HAZIRLADI
AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



**Azərbaycan xalqının budəfəki seçimi də 20 illik hakimiyyəti dövründə verdiyi bütün sözləri yerinə yetirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olacaq. Onun siyasi liderliyində daha inamlı gələcəyə, daha parlaq sabahlara doğru qətiyyətli addımlarla irəliləyəcəyik.**

Xalqın siyasi liderinə sonsuz etimadı və inamı onun dövləti və milləti qarşısındakı xidmətləri ilə ölçülür. Bu gün Azərbaycan dünyada azsaylı dövlətlərdəndir ki, adını ölkəsinin tarixinə qızıl hərflərlə yazdıran lideri var. Bəli, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev müasir dünyamızda beynəlxalq səviyyədə qəbul edilən, sözü eşidilən, qərarlarına və tələblərinə hörmətlə yanaşılan azsaylı dövlət xadimlərindəndir.

### 20 İL ƏVVƏL BAŞLAYAN YOL

Lider o şəxsdir ki, xalqının çətin zamanlarında ön sıraya çıxaraq bütün təhdid və çağırışlara ağılı, məntiqi, güclü iradəsi və qətiyyəti ilə qalib gəlir. Milyonların ümidinə çevrilir, sabaha olan inamını gücləndirir. Prezident İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi hər gün, hər dəqiqə bizim xalq, cəmiyyət olaraq uğurlu gələcəyə, müstəqil və güclü Azərbaycana olan inam və baxışlarımızı dəyişib. 2003-cü il Prezident seçkisindən başlayan bu yolun hər məqamı yeni bir uğurun təməlinin atıldığı andır.

### DAYANIQLI İQTİSADİ MODEL

Təbii ki, müstəqil siyasətin ən əsas dayağı güclü iqtisadiyyatdır. Son 20 ildə həyata keçirilən uğurlu neft strategiyası əsasında bu gün Azərbaycan iqtisadiyyatı çoxşaxəli, rəqabətqabiliyyətli və dayanıqlı iqtisadi modelə çevrilib. Beynəlxalq səviyyədə Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Bakı-Tbilisi-Qars dəmiryolu xətti, TANAP, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri ilə bağlı istənilən müzakirədə ilk olaraq ağıla Azərbaycan adı gəlir. İllərlə bu meqalayihələrin reallaşması yolunda hansı maneələrlə rastlaşdığımız hər birimizin yaddaşındadır. Bu maneələri dəf etmək, ölkənin iqtisadi inkişafının əsasını təşkil edən layihələrin gerçəkliyə çevrilməsi Prezident İlham Əliyevin siyasi lider kimi qətiyyətinin, diplomatik gedişlərinin və Azərbaycanın dünyaya etibarlı və güvənilən tərəfdaş kimi tanıdılması istiqamətində yorulmaz fəaliyyətinin nəticəsidir.

### NEFT KAPİTALINDAN İNSAN KAPİTALINA

Dövlət başçısının uzaqgörən siyasəti nəticəsində əldə edilən maliyyə gücü ilk növbədə ölkə vətəndaşlarının sosial rifah halının yaxşılaşdırılmasına, neft kapitalının insan kapitalına çevrilməsinə istiqamətlənib. Ölkə əhalisinin gəlirləri artıb, keçmiş qaçqın və məcburi köçkünlərin yaşayış şərtləri yaxşılaşdırılıb. Səhiyyə, təhsil sektorlarında yüzlərlə məktəb, xəstəxana yenidən inşa edilib. Məvaciblər, pensiyalar, təqaüdlər dəfələrlə artırılıb. Bu illər ərzində yüzlərlə istedadlı gənc dövlət başçısının birbaşa təşəbbüsü ilə reallaşdırılan xaricdə təhsil proqramından yararlanaraq dünyanın aparıcı universitetlərində ali təhsil alıblar. Bu proses hazırda da uğurla davam edir.

### VƏTƏNPƏRVƏR GƏNCLİK, GÜCLÜ ORDU

Sağlam ruhda, vətənpərvərlik hissləri ilə yetişdirilən gənc nəsil, həm də güclü ordu deməkdir. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu ilk illərdən başlayaraq Azərbaycanda güclü ordu quruculuğu prosesi Ali Baş Komandan kimi dövlət başçısının əsas prioritetlərindən biri olub. İllərlə büdcədən artan templə ayrılan vəsaitlər hesabına ən müasir hərbi texnika, peşəkar kadrlara malik, ən əsası isə vətənpərvərlik ruhunda böyüyən gənclərdən ibarət güclü ordu formalaşdırılıb. Müstəqil dövlətimizin əsas atributlarından sayılan Silahlı Qüvvələrimiz bu gün dünyanın ən güclü orduları sırasında yer alır.

### SADƏ VƏTƏNDAŞLARLA SƏMİMİ ÜNSİYYƏT

Siyasi lider olaraq İlham Əliyevi xalqına sevdirən, ona sarsılmaz inamını formalaşdıran ən mühüm amillərdən biri də Prezidentin sadə vətəndaşlarla səmimi ünsiyyəti, onlarla daimi görüşləri, problemlərini, qayğılarını ilk mənbədən öyrənməyə üstünlük verməsidir. Dövlət başçısının bütün çıxışlarının əsasında insan amili hər zaman ön planda dayanıb. Yürüdülən siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını xüsusilə vurğulaya bilərik. Çünki bu illər ərzində verilən qərarların mahiyyətinə nəzər salsaq görərik ki, onların əksəriyyəti məhz vətəndaşları qayğılandıran problemlərin həllinə istiqamətlənib. Biz bu diqqət və qayğını şəhid ailələri, müharibə iştirakçısı olmuş qazilərimizə münasibətdə daha çox hiss edirik. Ali Baş Komandan torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olan Vətən övladlarının əmanətinə dövlətimizin bütün imkanları ilə sahib çıxır. Onların övladlarının müstəqil dövlətdə layiqli həyat sürməsi üçün diqqət və qayğısını əsirgəmir.

> *“Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.”*

### BÜTÜNLƏŞƏN XALQ-LİDER BİRLİYİ

Bütün bu amillər illər ərzində xalq-lider birliyini bütünləşdirib.

Azərbaycan vətəndaşlarının siyasi liderinin ətrafında dəmir yumruq kimi birləşməsini şərtləndirib. Məhz bu vəhdət 44 günlük Vətən müharibəsində 30 illik işğala son qoyulmasının, ərazi bütövlüyümüzün bərpasının özülünü təşkil edib. Güclü iqtisadiyyat, peşəkar və vətənpərvər ordu, sarsılmaz xalq-lider birliyi, ən əsası isə Ali Baş Komandanın ən çətin anlarda nümayiş etdirdiyi güclü siyasi iradə, qətiyyət Azərbaycanın dəmir yumruğunun sarsıdıcı zərbəsini və gücünü bütün dünyaya nümayiş etdirib. Prezident İlham Əliyev müasir dövrdə çox az sayda dövlət xadimlərinin bacardığı bir işə imza atıb. Son iki yüz ildə ilk dəfə Azərbaycan müstəqil dövlət olaraq tarixi əraziləri üzərində suverenliyini bərqərar edib.

### DÜŞMƏNLƏRİMİZİ QORXUYA SALAN SARSILMAZ ETİMAD

Azərbaycan xalqı, bütün dünya Vətən müharibəsinin gedişində Prezident İlham Əliyevin siyasi lider kimi görünməyən tərəflərini gördü. Dövlət başçısının 44 gün ərzində rekord səviyyədə xarici mediaya müsahibələri, ölkəmizin haqq işini tutarlı arqumentlərlə əsaslandırması, ən qərəzli sualları belə mahir diplomat və siyasətçi kimi cavablandırması hər birimizin lider seçimində nə dərəcədə doğru qərar verdiyimizi bir daha təsdiqlədi. Təsadüfi deyil ki, hakimiyyətdə olduğu 20 il ərzində İlham Əliyevin xalq arasında reytinqi həmişə ən yüksək səviyyədə olub. Hətta dünyanın aparıcı rəy mərkəzlərinin müxtəlif illərdə keçirdiyi rəy sorğularında Prezident kimi onun fəaliyyətinə etimad çox yüksək səviyyədə olub. Azərbaycana qarşı məkrli planları olanları narahat edən, onların qarşısına sədd çəkən güc də məhz bu etimad səviyyəsidir. Çünki İlham Əliyevin dövlət başçısı kimi müstəqil Azərbaycanın milli maraqlarına əsaslanan qətiyyətli siyasətində arxalandığı ən böyük güc xalqının liderinə olan sonsuz məhəbbətidir. Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, o atdığı hər bir addımda, qəbul etdiyi hər bir qərarın arxasında məhz xalqının, millətinin ona olan böyük etimadını, inamını hiss edib.



## QARABAĞ BİZİMDİR, QARABAĞ AZƏRBAYCANDIR!

Bu gün Azərbaycan ümummilli lider Heydər Əliyevin görmək istədiyi vahid, sərhəd bütövlüyü, suverenliyi tam təmin olunmuş güclü, müstəqil dövlətdir. Ulu öndərin bu arzusunu reallaşdıran da, məhz Heydər Əliyevin siyasi liderlik, dövlət xadimi, idarəetmə məktəbini keçmiş Prezident İlham Əliyevdir. 20 illik fəaliyyətin əsas qayəsi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması idisə, bu fəaliyyətin zirvə nöqtəsi Xankəndidə Azərbaycanın üçrəngli bayrağının dalğalandırılmasıdır.

Müzəffər Ali Baş Komandanın Xankəndidə Azərbaycanın üçrəngli bayrağını dalğalandırarkən söylədiyi fikirlər bu gün də yaddaşlardadır. Bu, əslində çoxlarımız üçün əlçatmaz kimi görünən vəzifənin öhdəsindən layiqincə gələn qalib siyasi liderin hesabatı idi: “Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

### SEÇİMİMİZ QALİB ALİ BAŞ KOMANDAN OLACAQ

Artıq xalq olaraq qarşımızda yeni üfüqlər və hədəflər var. İşğaldan azad edilmiş ərazilərimizə, Şuşamıza, Laçınımıza, Ağdamımıza, Kəlbəcərimizə yeni həyat veririk. Qayıdırıq, məskunlaşırıq, yaradırıq, yaşayırıq. Çəkilən yolların, tikilən binaların, qurulan şəhər və kəndlərimizin hər birində Prezident İlham Əliyevin imzası var. Yenidən qurulan Yuxarı Qarabağ və Şərqi Zəngəzur məhz qalib sərkərdənin, görkəmli dövlət xadimi və xalqına qələbələr bəxş edən İlham Əliyevin əsəridir. Ancaq bu yolda da qarşımıza əngəllər çıxartmağa çalışan, qələbəmizə kölgə salmaq istəyənlər öz məkrli planlarından əl çəkmirlər. Daha böyük kinlə, qüvvə ilə üstümüzə gəlirlər. Əslində, görülən işlər müstəqil Azərbaycanın qarşısında açılan yeni bir yolun başlanğıcıdır. Bu yolda əldə etdiklərimizi qorumaq, düşmənlərimizin məkrli planlarını pozmaq, sülhə nail olmaq, sahib olduqlarımızı daha sağlam təməllər üzərində inşa edərək gələcək nəsillərə əmanət qoymaq üçün güclü siyasi liderə, dəmir iradəyə, xalqının sonsuz sevgisini, inamını qazanmış siyasi liderə heç olmadığımız qədər ehtiyacımız var. Qarşıdan növbədənkənar Prezident seçkisi gəlir. Heç kimdə şübhə yoxdur ki, Azərbaycan xalqının budəfəki seçimi də 20 illik hakimiyyəti dövründə verdiyi bütün sözləri yerinə yetirən müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olacaq. Yenicə yola çıxdığımız bu yolda onun siyasi liderliyində daha inamlı gələcəyə, daha parlaq sabahlara doğru qətiyyətli addımlarla irəliləyəcəyik.




# "Bakının Baş Planı üzərində iş başa çatıb"

Bakının Baş Planı üzərində iş başa çatıb və tezliklə təsdiq ediləcək.

"Report" xəbər verir ki, bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Bakı şəhərinin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi etməsinə dair Sazişin imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında bildirib.

"Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar mütəxəssislərin Bakıya gəlmək imkanı olmayıb, odur ki, məsələ bir az uzanıb. Sənəd hazırdır. Bir qədər əvvəl Bakıda və Sumqayıtda müəyyən sərhəd dəqiqləşmələri olub və bu məsələlər Baş Plana daxil edilib, yaxın günlərdə sənəd Nazirlər Kabinetinə yenidən təqdim ediləcək və tezliklə təsdiq olunacaq", - deyə o qeyd edib.

Qeyd edək ki, Azərbaycan Hökuməti və Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında Bakı şəhərinin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi etməsinə dair Saziş imzalanıb. Sənədi Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev ilə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimunah Mohd Şərif imzalayıblar.

Xatırladaq ki, BMT-nin 2001-ci ildə qəbul edilmiş müvafiq qərarına əsasən, şəhərsalma sahəsində ən mötəbər və genişmiqyaslı iştirakçılığa malik, iki ildən bir dünya şəhərlərindən birində keçirilən forum urbanizasiyanın bütün aspektləri ilə məşğul olan minlərlə iştirakçıya şəhərlərin necə qurulduğu, planlaşdırıldığı və idarə edildiyi barədə təcrübə və biliklərini bölüşmək imkanı verir.

# SOCAR "Equinor" şirkətinin iştirak paylarını alıb

İştirak paylarının alınmasına dair əqdlər bütün tənzimləyici tələblərin və müqavilə öhdəliklərinin şərtlərinə əməl edilməklə başa çatdırılacaq.



Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən "Azəri-Çıraq-Günəşli" (AÇG), "Qarabağ" yataqları, həmçinin Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsi üzrə Norveçin "Equinor" şirkətinə məxsus iştirak paylarının alınmasına dair sənədlər imzalanıb. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

Bildirilib ki, SOCAR prezidenti Rövşən Nəcəfin "Equinor" şirkətinin beynəlxalq kəşfiyyat və hasilat üzrə icraçı vitse-prezidenti Filip Matyönün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Qeyd edək ki, iştirak paylarının alqı-satqısına qədər, "Equinor" AÇG neft yataqlarında 7,27 %, BTC boru kəmərində 8,71 %, "Qarabağ" yatağında isə 50 % iştirak payına malik olub. SOCAR-ın iştirak payı isə AÇG-də 25 %, BTC-də 25 %, "Qarabağ" yatağında 50 % təşkil edib. İştirak paylarının alınmasına dair əqdlər bütün tənzimləyici tələblərin və müqavilə öhdəliklərinin şərtlərinə əməl edilməklə başa çatdırılacaq.

### ANLAŞMA MEMORANDUMU İMZALANIB

Görüşdə, həmçinin "Equinor" ilə SOCAR arasında dekarbonizasiya və yaşıl enerji sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Qeyd edək ki, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü ilin 20 sentyabr tarixində imzalanıb. 2017-ci ilin 14 sentyabr tarixində isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Bu saziş yataqların 2049-cu ilin sonunadək işlənməsini nəzərdə tutur.

AÇG-də bp (30,37 %), SOCAR (25%), "MOL Group" (9,57 %) INPEX (9,31%), "Equinor" (7,27%), "ExxonMobil" (6,79%), TPAO (5,73%), ITOCHU (3,65%), "ONGC Videsh Limited" (OVL) (2,31%) pay sahibidir.



## "QARABAĞ" YATAĞININ ÖZƏLLİKLƏRİ

"Qarabağ" yatağı Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən qazma işləri aparılıb. 2020-ci ildə SOCAR-ın və "Equinor" şirkətinin birgə qazma əməliyyatı vasitəsilə bu yataq məhz neft yatağı kimi kəşf edilib.

Xatırladaq ki, "Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" neft yatağının işlənməsi ilə əlaqədar Risk Xidməti" (RXS) Sazişi 2018-ci il mayın 30-da SOCAR və "Equinor" şirkətləri arasında imzalanıb. Layihədə şirkətlərin hər biri 50 % paya malikdir.

"Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil olunan neft və "Şahdəniz" yatağından çıxarılan kondensat, SOCAR-ın nefti, eləcə də Xəzər dənizi regionunun digər ölkələrinin nefti BTC boru kəməri ilə nəql olunur. BTC neft kəmərinin uzunluğu 1 768 km-dir. Bunun 443 km-i Azərbaycan, 249 km-i Gürcüstan, 1 076 km-i Türkiyə ərazisindədir. Boru kəmərinin ötürmə qabiliyyəti ildə 50 milyon tondan çoxdur.

Layihənin iştirakçıları bp (30,1%); SOCAR (25%); MOL (8,9%); "Equinor" (8,71%); TPAO (6,53%); ENI (5%); "Itochu" (3,4%); "ExxonMobil" (2,5%); INPEX (2,5%), "TotalEnergies" (5%) və "ONGCVidesh" (2,36%) şirkətləridir.

# "Nar" və "NETTY" ölkənin ən yaxşı internet təşəbbüslərini mükafatlandırdı

**Azərbaycanda öncül internet təşəbbüsləri dəstəkləmək məqsədilə, "Nar" və "NETTY" ilin ən yaxşı internet layihələrini mükafatlandırdı. Ekspertlər Şurasının seçimi və internet istifadəçilərinin səsverməsi ilə 20 layihə qalib seçildi.**

**Budəfəki müsabiqədə layihələr "Dövlət və elektron hökumət", "Sosial məsuliyyət və cəmiyyət", "Biznes və sahibkarlıq" və digər nominasiyalar üzrə qalib oldu. Qaliblər haqqında ətraflı məlumatı netty.az/az/winners səhifəsindən əldə etmək olar.**

**Qeyd edək ki, "Nar" yüksək keyfiyyətli rabitə xidməti təqdim etməklə yanaşı, həm də yerli İKT bazarının inkişafı istiqamətində ardıcıl layihələr həyata keçirir. 2004-cü ildən təsis edilmiş Netty İnternet Mükafatı da 2018-ci ildən bəri "Nar"la əməkdaşlıq edir və hər il qlobal şəbəkənin Azərbaycan seqmentində yaradılan layihələrin ən yaxşılarını mükafatlandırır.**

**Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə, ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.**



# SİNİF OTAQLARINDA SMARTFONLARA QADAĞA?

Artıq dünyanın bir çox ölkəsində bu qərar qəbul edilib. UNESCO-nun "Global Education Monitor" hesabatında da sinif otaqlarında smartfonların qadağan edilməsi təklif edilir. Azərbaycanda isə bu məsələyə münasibət birmənalı deyil.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Şagird və tələbələrin sinifdə və evdə telefon, planşet, noutbuk və s. kimi texnologiya vasitələrindən həddən artıq və qeyri-münasib istifadə etməsi diqqəti yayındırır, öyrənməyə zərərli təsir göstərir". UNESCO-nun "Global Education Monitor" hesabatının 2023-cü il üçün buraxılışında tövsiyə olunur ki, təhsili yaxşılaşdırmaq və uşaqları onlayn zorakılıqdan qorumaq məqsədilə bütün dünyada sinif otaqlarında smartfonlar qadağan edilməlidir. "Uşaqların ekran qarşısında çox vaxt keçirməsi onların emosional sabitliyinə mənfi təsir göstərir", - deyə buraxılışda bildirilir.

Təşkilatın baş direktoru Audrey Azouley deyib ki, rəqəmsal inqilab ölçüyəgəlməz potensiala malikdir, lakin onun cəmiyyətdə necə tənzimlənməsi ilə bağlı xəbərdarlıqlar edildiyi kimi, təhsildə istifadə üsuluna da eyni diqqət yetirilməlidir.

UNESCO-nun məlumatına görə, artıq dünyada hər dörd ölkədən birində məktəblərdə smartfonların istifadəsi qadağan edilib. Çində rəqəmsal cihazların tədris aləti kimi istifadəsi məhdudlaşdırılıb və orada şagird və tələbələrə müntəzəm olaraq ekran fasilələri verilir. Finlandiya imtahan nəticələrinin aşağı düşməsinə mane olmaq məqsədilə sinif otaqlarında telefonlardan istifadəni qadağan edib. İtaliyada 2023-cü ilin dekabr ayından məktəblərdə mobil telefondan istifadəyə qadağa qoyulub. Türkiyədə qanuna əsasən, mobil telefonlar, kameralar, planşetlər, kompüterlər, smart saatlar və bu kimi cihazlar məlumat vasitəsi kimi müəyyən edilir və dərs zamanı istifadəsinə icazə verilmir. Tənəffüs vaxtı telefondan istifadə edib-etməmək qərarı məktəb rəhbərliyinə həvalə edilir.

Rusiya məktəblərində də mobil telefonlardan istifadə qanunla tənzimlənəcək. Dövlət Dumasının deputatları bununla bağlı qanun layihəsi hazırlayıblar. Keçirilən sorğu nəticəsində respondentlərin 85%-i uşaqların sinifdə telefondan istifadə etməsini zərərli hesab edib.

Bizim ölkəmizdə də problem daim müxtəlif kontekstlərdə gündəmə gəlir. Amma hələlik məktəblərdə mobil telefondan istifadənin tamamilə qadağan olunması və ya məhdudlaşması ilə bağlı hər hansı qərar yoxdur. Son günlər bəzi onlayn resurslarda ölkənin ümumi təhsil müəssisələrində şagirdlərə dərsə mobil telefon gətirməyə qadağa qoyulması barədə məlumatlar yayılmaqdadır.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi isə yayılan xəbərin reallığı əks etdirmədiyini bildirir. Belə ki, ötən tədris ilinin ikinci yarımilindən başlayaraq ölkəmizin pilot olaraq 300 məktəbində tətbiq edilən "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları"na görə şagird ağıllı saat və telefonları, həmçinin digər elektron cihazları məktəbə gətirməməli və dərs zamanı istifadə etməməlidir: "Şagird, əgər məktəbə gəlib-getməsi üçün təhlükəsizliyinin təmin olunması məqsədilə telefon gətirirsə, həmin telefon şagirddən alınaraq təhlükəsiz yerdə saxlanılır və dərs məşğələləri bitdikdən sonra ona geri qaytarılır".

### "MAARİFLƏNDİRMƏK DAHA YAXŞI NƏTİCƏ VERƏR"

Böyük Britaniyanın Kembric Universitetinin professoru Qərib Mürşüdov məktəbyaşlı uşaqların mobil telefondan istifadə etməsinə narahatlıq yaradan hal kimi yanaşır: "Bilmirəm, bu problemi qərarlar və ya qanunlarla həll etmək mümkündürmü? Ümumiyyətlə, sosial mediaya indi dünyada bir problem kimi baxılmalıdır. Bu platformalara müəyyən nəzarət zəruridir". Professor hesab edir ki, əsas nəticəyə tərbiyə və biliklərlə nail olmaq mümkündür: "Bunun üçün müəyyən dərslər keçmək olar: sosial media nədir, hansı tərəfləri var? İnternet necə inkişaf üçün istifadə edilə bilər? Bildiyim qədər belə dərslər yoxdur. Məktəblilər arasında telefonu, interneti qadağan etməklə problem həll olunmayacaq, əksinə, daha da cəlbedici olacaq. Bu kimi problemləri maarifləndirməklə həll etmək mümkündür. Uzun müddət ərzində qərbdə gənclər arasında seks və narkotik böyük problem idi. Bu problemə yanaşma üçün xüsusi maarifləndirici dərslər keçirlər. Bu, müəyyən müsbət nəticə verir. İnternet, sosial media və mobil telefonlar da oxşar problemdir. Fikrimcə, maarifləndirmək daha yaxşı nəticə verər".




Foto: Sabir Məmmədov/Global Media Group

## DİQQƏTİN DƏRSDƏ OLMASI ÜÇÜN

İnternet Texnologiyaları üzrə (İT) mütəxəssis Tural Mustafayev hesab edir ki şagirdlərin mobil telefondan istifadəsinin məhdudlaşdırılması nəinki mümkündür, hətta vacibdir: "Hətta ABŞ və Avropa şirkətlərinin bəzilərində əməkdaşların mobil telefondan istifadəsinin məhdudlaşdırılması təcrübəsi var. İş yerinin girişində işçilərin telefonları yığılır. Bu baxımdan, məktəblərdə şagirdlərin də mobil telefonlardan istifadəsinə qadağa qoymaq mümkündür. Çünki məktəblilər "TikTok", "Instagram" kimi platformalara, bloqerlərə, video çəkib populyarlaşmaq istəyən adamlara fərqli gözlə baxırlar. Şagirdlər məktəbin dəhlizlərində və həyətində toplaşanda müəyyən qeyri-etik, məktəb nizam-intizamına uyğun gəlməyən videoları izləyirlər. Təcrübələr göstərir ki, indiyə qədər məktəblilər tərəfindən çəkilən videoların bir çoxu qeyri-etikdir. Üstəlik bu, videosu çəkilən uşaqların nüfuzuna da təsir göstərir".

Mütəxəssisin fikrincə, müəllimin sinifdə hər şagirdə ayrı-ayrılıqda nəzarət etməsi çətindir: "Mən məktəbin girişində telefonların mühafizəçilər tərəfindən yığılmasının tərəfdarıyam. Məsələ uşaqları zərərverici kontentlərdən uzaqlaşdırmaq, şagirdlər tərəfindən məktəbə aidiyyəti olmayan kontentlərin yaradılmasının qarşısını almaqdır. Bu qadağa şagirdlərin heç bir formada texnologiyaya olan əlçatanlığının qarşısını almır. Çünki məktəblərdə informatika dərsi keçirilir. İnformatikaya çıxış əldə etmək istəyən, rəqəmsal dünya ilə əlaqəsini kəsmək istəməyən uşaq onsuz da evdə olduğu müddətdə kompüterdən istifadə edəcək. Amma bu, uşaqlara toplu şəkildə təhsil verildiyi yerdə olmamalıdır. Çünki 3-5 uşağın dərsə telefon gətirməsi yanındakı şagirdin də diqqətini alır. Bunun qarşısını almaq istəyənlərə də texnologiya düşməni kimi baxmaqları qəribə görünür".



Tural Mustafayev

## ŞAGİRDLƏRİN ASUDƏ VAXTLARI DÜZGÜN TƏŞKİL OLUNSA...

Azərbaycan Dövlət Pedaqoji Universitetin Pedaqoji-psixologiya kafedrasının müəllimi Yaqut Ağasiyevanın fikirləri bir qədər fərqlidir: "Telefonu tamamilə məhdudlaşdırmaq mümkün deyil. Düzdür, şagirdlər mobil telefonları məktəbə aparırlar, problemlər də bundan yaranır. Fikrimcə, əgər müəllimlər dərsləri düzgün qursalar, interaktiv dərslərdən istifadə etsələr, onda uşaqlar dərsə cəlb olunar və onların telefona diqqəti məhdudlaşar. Evlərdə isə buna əməl etmək valideynlərdən asılıdır. Mən özüm də valideynəm. Uşaqlar bəzən telefondan tapşırıqların həlli üçün istifadə edir, axtarış aparırlar. Həmişə deyirəm ki, tələbələrin, məktəblilərin və azyaşlıların asudə vaxtları düzgün təşkil olunsa, onlar telefona bu qədər meyl etməyəcəklər".



Yaqut Ağasiyeva

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# SU ANBARLARI XƏSTƏLİK MƏNBƏYİ ROLUNDA



**Binaların ehtiyat su anbarları ən azı ildə bir dəfə yuyulmalıdır. Dövlətin balansında olan binaların anbarlarında bu qaydaya əməl edilir. MTK-lar tərəfindən idarə edilən binalardakı su anbarlarının yuyulması isə idarəedicilərin insafına qalıb.**

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi məlumat yayıb ki, 2023-cü ilin Tədbirlər Planına uyğun olaraq Bakı şəhəri və Abşeron yarımadasında, həmçinin regionlarda ümumi həcmi 790 min kubmetrdən çox olan 987 anbarın yuyulub təmizlənməsi nəzərdə tutulub. Məlum olduğu kimi, çoxmənzilli binalarda da içməli suyun yığılması üçün anbarlar mövcuddur. Dövlətin balansında olan binaların su anbarlarındakı təmizlənmə işləri mütəmadi olaraq həyata keçirilir. Bəs özəl MTK-larda bu iş necə tənzimlənir?

### AGENTLİK VƏ MTK-NIN ÖHDƏLİYİ

Məlumata görə, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin balansında olmayan və mənzil-tikinti kooperativlərinə məxsus su anbarları da ildə ən azı bir dəfə yuyulub təmizlənməlidir. Bununla bağlı mənzil tikinti kooperativləri məlumatlandırılır, əhaliyə verilən içməli suyun təhlükəsizliyi üçün anbarların yuyulub-təmizlənməsinin zəruriliyi onların diqqətinə çatdırılır. Agentliyin öhdəliyi anbara qədər suyun gətirilməsidir. Nasosxananın, anbarın və binadaxili su təchizatı və kanalizasiya sistemlərinin işlək vəziyyətdə saxlanılmasına isə cavabdehliyi MTK özü daşıyır. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi kənar təşkilatlara anbaryuma xidməti göstərmir. Bunun üçün MTK-lar özəl şirkətlərə müraciət etməlidir.

### XÜSUSİ LİSENZİYASI OLAN ŞİRKƏTLƏR

Binaların idarə edilməsi məsələləri üzrə ekspert Elxan Orucov bildirdi ki, özəl binalardakı su anbarlarının təmizləmə işlərini MTK-lar özləri tənzimləməlidir: “Azərbaycanda mənzil fondu üç yerə - özəl, dövlət və bələdiyyə fondlarına bölünür. Özəl mənzil fondu mülkiyyətçilərin ödədiyi vəsait hesabına formalaşır. Bütün xərclər sakinlərin ödədiyi kommunal vəsaitlər hesabına maliyyələşdirilir. Respublika Gigiyena və Epidemiologiya Mərkəzi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən qoyulan məcburi tələbə görə, ildə bir dəfə binalarda yerləşən su anbarları dezinfeksiya olunmalı və yuyulmalıdır. Məsələn, biz idarə etdiyimiz binalarda mütəmadi olaraq ildə bir dəfə olmaq şərti ilə həmin anbarları xüsusi lisenziyası olan şirkətlərə yuduzdururuq”.

### NƏZARƏT MEXANİZMİ YOXDUR

Ekspertin fikrincə, sakinlər özləri də sağlamlıqları üçün bunu MTK-dan tələb etməlidirlər: “Amma bir çox binalarda su anbarlarında təmizliyə əməl olunmur. Bu, birbaşa insan sağlamlığı üçün təhlükəli məsələdir. Zaman-zaman bu məsələ gündəmə gətirilir, amma heç bir effekti olmur. Sakinlər özləri sağlamlıqlarını fikirləşməlidirlər. Təəssüflər olsun ki, buna nəzarət mexanizmi yoxdur. Dövlət tərəfindən tövsiyə olunur ki, yuyulsun. Amma özəl mənzil fondu olduğuna görə, işin görülməsi vəsaitə bağlı məsələdir. Anbarların yuyulması üçün müəyyən pul ödənilməlidir”.

## ƏSAS MƏSULİYYƏT İDARƏEDİCİLƏRİN ÜZƏRİNƏ DÜŞÜR

E.Orucov dedi ki, burada əsas məsuliyyət idarəedicilərin üzərinə düşür: “Çünki vətəndaşlar kommunal xidmət haqlarını, binanın saxlanması xərclərini ödəyirlər. Bu məsələni idarəedicilər özləri təşkil etməlidirlər. Lakin bu sahə yaxşı vəziyyətdə deyil. İnsanlar da laqeydlik göstərib tələb etmirlər. Bir çox binalar MTK-lar tərəfindən idarə olunduğuna görə, bu məsələlərə diqqət yetirilmir”.

Müsahibimiz qeyd etdi ki, su anbarlarının yuyulması üçün iki seçim mövcuddur: “Bir variant belədir ki, rayonların tərkibindəki gigiyena idarələri ilə ödənişli əsaslarla müqavilə bağlanmalı, anbardan laborator analizlər götürülüb, müayinələr aparılmalı və yuyulmalıdır. Yaxud Respublika Gigiyena və Epidemiologiya Mərkəzi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən xüsusi lisenziyası olan şirkətlərlə binanın idarəediciləri müqavilə bağlayırlar. Müqavilə əsasında da xidmət təşkil olunur”.



Elxan Orucov

### SU ANBARLARINI YUDUZDURMAQ İSTƏYİRLƏRSƏ...

Su anbarlarının təmizlənməsi və dezinfeksiyası ilə məşğul olan şirkətlərin birinin direktoru Sabir Abdurəhmanov bildirdi ki, bəzən çox pis vəziyyətdə olan anbarlara da rast gəlirlər: “Qaydalara əsasən, ildə ən azı bir dəfə su anbarları təmizlənib dezinfeksiya olunmalıdır. 6 ayda bir dəfə isə sadəcə dezinfeksiya edilməlidir. Əgər MTK-lar su anbarlarını yuduzdurmaq istəyirlərsə, müraciət edirlər və orada texniki baxış keçiririk, sonuncu dəfə nə vaxt yuyulması, anbarın təxliyə xətti, anbara girib-çıxmaq, meyllilik səviyyəsi, suyun axıdılacaq yeri, yaxınlığı və uzaqlığı - bunlar hər biri ölçüldükdən sonra qiymət təklifi veririk. Əgər razılaşırlarsa, icra edirik. Elə binalar var ki, gedirik və anbarların bərbad vəziyyətdə olduğunu görürük”.

S.Abdurəhmanovun sözlərinə görə, su nə qədər təmiz də olsa, anbarda saxlanılanda çöküntülər əmələ gəlir: “Bunlar ehtiyat su anbarı hesab olunur, yəni su gəlib oraya tökülür, oradan da binaya paylanılır. Bir il ərzində lil qatı əmələ gəlir. Lil qatı da qaldığı müddətdə bakteriyalar, bağırsaq çöpləri yaranır. Bu da insanların sağlamlığı üçün təhlükəlidir”.



## VƏBA, DİGƏR TƏHLÜKƏLİ XƏSTƏLİKLƏR

İnfeksionist-hepatoloq Mərdan Əliyev isə qeyd etdi ki, təhlükəli epidemioloji xəstəliklər də su vasitəsilə yarana bilər: “Su çənləri, su anbarları vaxtaşırı təmizlənməli, xlorlanmalı, dezinfeksiya olunmalıdır. Müxtəlif xəstəliklər var ki, içməli su vasitəsilə yoluxur. Məsələn, illər öncə vəba kimi pandemiyalar olub ki, su vasitəsilə yayılıb. Bakterial infeksiyaların bir çoxu məhz su vasitəsilə yoluxa bilir. Virus infeksiyalarından rotavirus var ki, o da su ilə yaranır. Bu, xüsusən uşaqlar arasında yayılan infeksiyadır. Belə xəstəlikləri nəzərə alaraq anbarlar tez-tez xlorlanmalı və təmizlənməlidir”.



Mərdan Əliyev

# PALÇIQ VULKANLARI cəlbedici turizm aləti kimi



**Foto:** Ramil Yunus/Global Media Group

“Vulkanlar ölkəsi” kimi tanınan Azərbaycanda bu sahənin inkişafı ilə bağlı yaxşı perspektivlər var. Yaxın vaxtlarda Abşeron rayonunun Qobustan kəndinin ərazisində tikilən Palçıq Vulkanları Turizm Kompleksinin açılışı gözlənilir.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dünyadakı 800-dən çox palçıq vulkanından 400-ə yaxını bizim ölkəmizdədir. Bu statistika ölkəmizin adını həm də “vulkanlar ölkəsi” kimi tanıdıb.

Palçıq vulkanlarının əksəriyyəti Bakı və Abşeron ərazisində - sahildə, dənizdə və adalarda cəmləşib. Xəzər dənizində 140-dan çox belə vulkan var. Bakı arxipelaqında palçıq vulkanlarının fəaliyyəti nəticəsində 8 ada yaranıb. Dünyanın ən böyük palçıq vulkanları - Böyük-Kənizadağ və Turağay da bizim coğrafiyada yer alıb. Nəzərə alsaq ki, dünyanın ən böyük palçıq vulkanının püskürməsi “Ginnesin Rekordlar Kitabı”na daxil edilib, onda bu sahə üzrə mütəxəssislərin diqqətinin ölkəmizə yönəlməsini də təsadüfi saymaq olmaz.

### EKOTURİZM OBYEKTİ

Palçıq vulkanların neft və qaz tərkibinə və əlverişli hidrogeoloji şəraitinə görə maqmatik vulkanlardan fərqlənməsi və eyni dağıdıcı enerjiyə malik olmaması bu təbii sərvətin ölkəmizdə ekoturizm obyekti kimi istifadəsinə şərait yaradır. Prezident İlham Əliyevin “Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupunun Dövlət Təbiət Qoruğunun yaradılması haqqında” Sərəncamı artıq 50-dən çox palçıq vulkanının Dövlət Təbiət Qoruğu statusu almasına səbəb olub. Həmçinin, dövlət başçısının iştirakı ilə 2021-ci ildə Abşeron rayonunun Qobustan kəndinin ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin təməli qoyulub. Belə ki, kompleks Azərbaycana səfər edən turistlərə palçıq vulkanları ilə bağlı ətraflı informasiya əldə etmək imkanı verəcək.

### TURİSTLƏR ÜÇÜN CƏLBEDİCİ

Bu yaxınlarda ilin yekunlarına həsr olunan Turizm Sammitində Palçıq Vulkanları Turizm Kompleksi üzrə işlərin artıq yekunlaşmaqda olması ilə bağlı verilən məlumat da turizmin bu növünün artıq diqqətdə olduğunu gündəmə gətirdi: “Kompleksdə müxtəlif cür xidmətlər təşkil ediləcək. Həmin xidmətlərdən gələn turistlər də istifadə edəcəklər”.

Dövlət Turizm Agentliyi də mövzu ilə bağlı sorğumuza cavab olaraq yaxınlarda kompleks üzrə hazırlıqların başa çatacağını və bu haqda ictimaiyyətə geniş məlumat veriləcəyini bildirdi.

Bu hazırlıqlar yaxın gələcəkdə ölkəmizdə yeni bir turizm bumunun yaşanacağına ümidləri artırır. Yeni və unikal turizm məhsulu kimi vulkanlar turistlər üçün çox cəlbedici hadisə ola biləcək. Yəni klassik tətil mövsümü başa çatdıqdan sonra - payız-qış aylarında da səyahətçilər ölkəmizə gəlməkdə davam edəcəklər. Bu səfər zamanı onlar bu heyrətamiz vulkanları çox yaxın məsafədən görmək şansı qazanacaq, bu məkanın verdiyi sehri hiss edəcəklər. Amma bir şərtlə: bu istiqamətdə işlər mükəmməl qurularsa. Hələlik isə...



## KORTƏBİİ TURLAR

Dünya təcrübəsində sehrli gözəlliyə malik palçıq vulkanlarının olduğu yerlərə turlar təşkil edilir, bu məkanlarda tibb müəssisələri yaradılır, kurortlar tikilir. Vulkan turları növlərindən asılı olaraq dünyada çox məşhurdur. İslandiya, İndoneziya, Meksikada palçıq vulkanları, İtaliyada Vezuvi vulkanı, həmçinin Kamçatkada, Azov dənizində və s. yerlərdə palçıq vulkanlarına turlar turistləri cəlb edir. Palçıq vulkan turları daha çox sağlıq turizmi məqsədilə təklif olunur. Vulkanik palçıq sağlamlığa faydalı təsir göstərir: sərin təbii vannalarda üzgüçülük seanslarından sonra dayaq-hərəkət sistemi və ürək-damar sistemi xəstəliklərinin simptomları yüngülləşir. Həmçinin, vulkanlar və onların palçıq kütlələrindən elm və sənayedə istifadə olunur.

Təəssüf ki, ölkəmiz palçıq vulkanlar üzrə dünyada birinci yerdə olmasına baxmayaraq, turizm destinasiyası kimi bu sahənin inkişafından danışmaq olmaz. Hələlik palçıq vulkanlarına yerli turizm şirkətləri tərəfindən kortəbii ekskursiyalar təşkil edilir. Yəni bu gün palçıq vulkanlarının ərazisində xoş olmayan mənzərə var. Bunu turizmçilər özləri də etiraf edirlər.

### QIŞ AYLARININ PROBLEMİ

Turizmçi Tərlan Quliyev palçıq vulkanları turizminin ölkəmizdə populyar olduğunu bildirsə də, bu sahədə müəyyən problemlərin olduğunu da qeyd edir: “Bu turizm növü xüsusən ərəb və hindistanlıları cəlb edir. Destinasiya çox maraqlıdır. Bu istiqamətdə şirkətlər tərəfindən ekskursiyalar və turlar təşkil edilir. Kompleksin özünə yaxşı yol çəkilib və vulkanlara getmək olur. Digər tərəfdə isə yol keyfiyyətsizdir, yağışlar olanda, xüsusən qış aylarında ekskursiyaların təşkili mümkün olmur”.

Turizmçinin sözlərinə görə, hazırda palçıq vulkanlara olan ekskursiyalar ziyarət xarakteri daşıyır: “Yay mövsümündə bəzən turistlər palçıq vulkanların içinə girir və könüllü olaraq palçıq vannası qəbul edirlər. Amma xüsusi olaraq orada müalicə-sağlamlıq üçün xüsusi bir xidmət nəzərdə tutulmayıb. Ola bilər ki, gələcəkdə bununla bağlı nüanslar nəzərə alınsın”.


Tərlan Quliyev

## BİZİM İNSANLARIMIZ DAHA ÇOX ƏYLƏNCƏYƏ MEYL EDİRLƏR

Turizmçi Səbinə Rüstəmova əsasən Qobustan ərazisinə turların təşkil edildiyini bildirir: “Ən məşhur və ziyarət edilən palçıq vulkanları Bakıdan 75 km cənub-qərbdə, Qobustan kəndi yaxınlığında yerləşir. Turlarda əsasən əcnəbilər iştirak edirlər. Hindistan, Pakistan və ərəb ölkələrindən gələn turistlər palçıq vulkanlarına səyahət etdiyindən, onlar üçün belə turlar təşkil edilir”.

S.Rüstəmova öz vətəndaşlarımızın belə turlara maraq göstərmədiyini təəssüflə qeyd edir: “Bizim insanlar elmi turlara maraq göstərmirlər. Onlar daha çox əyləncə turizminə və qış turizm növlərinə meyl edirlər. Ancaq məktəblilər belə turlarda iştirak edirlər. Bu turlar məlumatyönlü olduğu üçün uşaqlara məlumatlar verilir. Hesab edirəm ki, bu turizm növünü daha da populyarlaşdırıb turizm destinasiyası kimi inkişaf etdirmək olar. Nəticədə yerli əhalinin marağı artar, əcnəbi turistlərin sayı da çoxalar”.


Səbinə Rüstəmova

# İDXAL ƏTİN QİYMƏTİNİ TƏNZİMLƏYƏCƏKMİ?

Əhalinin ət məhsullarını sevməsi, turizm sektorunun inkişafı, ölkəyə gələn qonaqların sayının artması ətə olan tələbatı artırır. Hazırkı vəziyyətdə sahibkarlar əti Gürcüstan, Rusiyadan idxal edirlər. Çünki sahibkara əti xaricdən idxal etmək, istehsal etməkdən ucuz başa gəlir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ölkəmizdə əhalinin istehlak etdiyi qida məhsulları sırasında ən üstün yerlərdən birini ət məhsulları tutur. Millət olaraq əti sevir, süfrələrimizi daim ət yeməkləri ilə bəzəyirik. Lakin ət qiymətlərindəki artım istehlakçıları məyus edir. İki ildir ki, ətin ucuzlaşmasını deyil, bahalaşmasını müşahidə edirik. Bir neçə il öncə kiloqramına 11 manat verdiyimiz əti bu gün 15-18 manata alırıq.

Ötən həftə Dövlət Gömrük Komitəsinin ölkəyə ət idxalı ilə bağlı açıqladığı rəqəmlər ətsevərləri yenidən həyəcanlandırıb. Komitənin məlumatına görə, bu ilin yanvar-oktyabr aylarında ölkəyə 35 milyon dollarlıq ət gətirilib. Yəni Azərbaycan 34 min 860 ton ət idxal edib. Bu, həcm baxımından 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 054 ton, dəyər baxımından isə yeddi milyon 385 min ABŞ dolları çoxdur.

Bundan öncə mütəxəssislər bahalaşmanın səbəblərindən biri kimi ətə olan tələbatı göstərirdilər. Yəni tələb çox, istehsal az idi. Bəs ölkəyə ət idxalının artması qiymətləri stabilləşdirə, ətin bahalaşmasının qarşısını ala bilərmi?

**ƏT MƏHSULLARINI İDXAL EDİRİKSƏ...**

İqtisadçı Fuad İbrahimov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, ətin bahalaşmasına təsir edən ilk amil yem bazarındakı qiymət artımıdır: "Hazırda Azərbaycan kənd təsərrüfatı sektorunda çoxşaxəli siyasət həyata keçirir. Bu gün biz ət məhsullarını istehlak bazarına idxal ediriksə, deməli, hazırda üzümçülüyə, pambıqçılığa, taxılçılığa daha çox önəm veririk. Bunlar strateji məhsullar sırasına aiddir və ixrac potensialımızı yüksəldir. Ət məhsullarının xaricdən gətirilməsini neqativ hal kimi qəbul edənlər də var. Amma nəzərə almaq lazımdır ki, dünyada yem bazarında kifayət qədər bahalaşma var. Hazırda ölkədə yem bazarının artırılması, onun qiymətlərinin ucuz olmasını təmin etmək mümkün deyil. Buna görə də idxalı artırırıq".




Foto: Səbinə Şəbiyeva / Global Media Group




## MÜSBƏT RƏQƏMLƏRİ GÖRƏCƏYİK

Mütəxəssisin sözlərinə görə, hazırda sahibkarlara əti idxal etmək daha sərfəlidir, nəinki istehsal etmək: "Nəzərə almaq lazımdır ki, heyvandarlıqla bağlı müəyyən məhsullar var ki, biz onları xaricdən idxal edirik. Buraya xüsusilə, dərman preparatları, peyvəndlər daxildir. Bir heyvanın ərsəyə gəlməsi, yem bazaları ilə təmin edilməsi, otlaq sahələrinin artırılması asan proses deyil.

Bundan əlavə, həm əhalinin ət məhsullarını sevməsi, həm də turizm sektorunun inkişafı, ölkəyə gələn qonaqların sayının artması ətə olan tələbatı artırır. Hazırkı vəziyyətdə sahibkarlar əti Gürcüstan, Rusiyadan idxal edirlər. Çünki sahibkara əti xaricdən idxal etmək, istehsal etməkdən ucuz başa gəlir. İdxalın artırılması bazarda ət qiymətlərinin ucuzlaşmasında ciddi rol oynayacaq".

Mütəxəssis vurğulayır ki, sovet dövründə və ondan öncəki illərdə Kəlbəcər, Laçın ən zəngin örüş zonaları, yaylaqları ilə seçilib. Bu torpaqlar tam şəkildə iqtisadi dövriyyəyə cəlb edildikdən sonra yem bazası təkmilləşəcək və örüş zonaları yenidən kənd təsərrüfatı sektorunun heyvandarlıq istiqamətinə yönəldiləcək: "Torpaqlarımız işğaldan azad olunub və suveren hüquqlarımızı tam bərqərar etmişik. Bilirik ki, o torpaqların tam iqtisadi dövriyyəyə cəlb edilməsi istiqamətində kifayət qədər işlər görülüb və davam edir. Bu işlər bitdikdən sonra bu sahədə müsbət rəqəmləri görəcəyik".



Fuad İbrahimov

## XARİCDƏN ƏTİN İDXALI PROSESİ ARTIQ BAZARDA SÖZÜNÜ DEYİR



Fikrət Yusifov

İqtisadçı Fikrət Yusifov isə deyir ki, bazarda istənilən məhsulun qiyməti tələb və təklif əsasında formalaşır. İqtisadçının sözlərinə görə, son bir neçə ildə bazarlarda ətin qiymətində kəskin artımlar yerli istehsalın azalması ilə izah olunurdu. Hazırda isə bu prosesin əksi müşahidə olunur: "Regionlarda fermerlərin örüş sahələrində daha çox dənli bitkilərin əkilməsinə üstünlük verməsi və bu səbəbdən mal-qara saxlamaq imkanlarının məhdudlaşdırıldığına dair çıxışlara tez-tez rast gəlinirdi. Örüş yerləri əkin yerləri ilə əvəzləndikcə bazarlarda ətin qiyməti davamlı qalxırdı. Son vaxtlar yerli bazarlarda bu prosesin əksi müşahidə edilir. Hazırda ət idxalının keçən ilin eyni dövrü ilə müqayisədə 20 faiz artması artıq öz sözünü deyir. İdxal səbəbindən bazarda ət təklifi çoxaldığı üçün qiymətlər aşağı düşüb".

**ƏT REGİONLARDA UCUZDUR**

Hazırda regionlarda ət şəhərə nisbətən ucuz satılır. Mütəxəssis deyir ki, bunun səbəbi mal-qaranın öz ərazilərində bəslənməsi və əlavə nəqliyyat xərclərinin olmamasıdır: "Əgər heyvan rayondan Bakıya gətirilirsə və ya heyvan rayonda kəsilir, əti Bakıya daşınırsa, ortada ilk növbədə nəqliyyat xərcləri yaranır. Üzərinə ətin anbarda saxlanma xərclərini də əlavə etdikdə, qiymətin rayonda ucuz olması normaldır".

Mütəxəssis vurğulayır ki, idxal hesabına qiymətlərdə stabilləşmə yaratsaq da, hədəfimiz yerli istehsalı artırmaq və daxili bazarın ətə olan tələbatını ilk növbədə istehsal hesabına qarşılamaq olmalıdır: "Bunun üçün yerlərdə heyvandarlıqla məşğul olan fermerlərə indikindən daha münbit şərait yaradılmalı və ilk növbədə regionlarda örüş yerləri ilə bağlı məsələnin həlli istiqamətində addımlar atılmalıdır".

# MİKROMOBİLLİK SAHƏSİNDƏ YENİLİK



“Avtomobil yollarının enini bir metr qısaltmaqla skuterlər və velosipedlər üçün yol yarada bilərik. Lakin bunu səkiyə çıxmamaq şərti ilə etmək lazımdır. Çünki səkilərimiz onsuz da məhduddur”.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

“Azərbaycanda mobilliyin transformasiyası proqramı”nın təqdimatında Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, Bakıda vətəndaşların skuterləri səliqəli sürməsi üçün layihələr hazırlanır: “Çalışırıq ki, skuterlərin də velosipedlər kimi rahat hərəkəti təmin edilsin, eləcə də onlar üçün parkinq sahələri olsun”. Bunun üçün nələr edilməlidir?

### DÜNYA TƏCRÜBƏSİNDƏ BELƏDİR

Bu sahədə beynəlxalq təcrübə də maraqlıdır. ABŞ-də qaydalar əyalətə görə dəyişir. Pensilvaniya və Delaverdə küçələr və səkilər elektron skuterlər üçün qadağandır. Florida ştatında isə onlar yalnız velosiped yollarından istifadə edə bilərlər.

İngiltərədə skuterlərdən küçələrdə və velosiped yollarında istifadə edilə bilər. Səkilərdə isə onlardan istifadə qadağandır. Böyük Britaniyada vətəndaşların öz skuterlərindən istifadə etmələri qadağandır, skuteri yalnız icarəyə götürmək olar.

Kanada da küçələrdə skuterin istifadəsini qadağan edib. Səkidə istifadəsinə icazə verilir, lakin piyadaların keçməsinə mane olarsa, cərimə tətbiq edilir. Həmçinin velosiped yollarında və gəzinti yerlərində istifadə edilə bilər.

Qardaş Türkiyədə İzmir Böyükşəhər Bələdiyyəsi elektrikli skuterlər üçün xüsusi yol dizayn edib. Pilot ərazi olaraq Bornova axınının sahili seçilib. İstanbul Böyükşəhər Bələdiyyəsi isə skuterlərdən istifadə ilə bağlı yeni fəaliyyət planı həyata keçirəcək. İstanbulun müxtəlif nöqtələrində 1500 park yeri yaradılacaq.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentli-yindən sorğumuza cavab olaraq bildirildi ki, nazir müavininin bəhs etdiyi layihə hələ hazırlıq mərhələsindədir.

### ƏN SON VARİANT - ŞƏXSİ NƏQLİYYAT

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyevin sözlərinə görə, insanlar üçün bütün alternativləri yaratmalıyıq: “Əslində layihə bu vaxta qədər işlənilməli idi. İnsanların alternativləri olmalıdır. Tıxac olduqda insanlar hansı nəqliyyat vasitəsindən istifadə edəcəyinə özləri qərar verməlidirlər. Şərait yaradılmadığı təqdirdə şəhərdə avtomobilləşmə artacaq, tıxacların müddəti daha da uzanacaq”.



## ƏLİMİZDƏ OLAN İMKANLARLA EDƏ BİLƏCƏKLƏRİMİZ

Müsahibimiz dayanacaq məsələsi ilə bağlı qeyd etdi ki, hər şeydən öncə infrastrukturu yaratmaq lazımdır: “Skuterlərə şərait qurulmayıb deyə, onlar hər yerdə saxlanılır. İnfrastruktur yaradılandan sonra bütün məsələlər öz həllini tapacaq. Bu halda nəzarət də güclənəcək. Mikromobillik vasitələri üçün yolun yaradılması tez və asan başa gələn prosesdir. Mikromobilliklə bağlı işlər digər proseslərlə paralel gedə bilər. Qısa və daha tez hiss olunan həllər mikromobillik vasitələridir. Amma orta və uzun vədəli olanlar isə relsli nəqliyyat - tramvay, metro, şəhərətrafı elektrik qatarı şəbəkəsinin qurulmasıdır. Onlar da vacibdir, amma bir az zaman alacaq. Bunlar həll olunana qədər əlimizdə olan imkanlarla mikromobilliyi təşkil etmək olar. Əgər zolaq olarsa, bu halda heç bir xaos da yaranmayacaq”.

Qeyd edək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi artıq Bakıda velosiped yollarının salınması istiqamətində hazırlanmış layihənin icrasına başlayıb. Layihənin ilkin mərhələsi Bakı şəhərinin əsasən mərkəzi hissələrini əhatə edəcək.

## ƏYLƏNCƏ VASİTƏSİ, YOXSA?

R.Ağamirzəyevin fikrincə, skuterlər əyləncə vasitəsi kimi istifadə olunmaqdansa, minik növü olsalar daha yaxşı olar: “Bizim ölkədə mikromobillik vasitələrinə əyləncə kimi baxırlar. Parkda sürmək, əylənmək daha çox rast gəlinir. Amma bu, yanlışdır. Bulvar boyu ərazi böyük dəhlizdir. Həmin dəhliz boyu gedən yol mövcuddur. Bulvar daxilində velozolaq təşkil edilsə, Bayıl ərazisindən Yusif Səfərov küçəsinə qədər insanlar üçün alternativ formalaşar. Amma bir başqa nüans da var ki, bulvar xüsusi qorunan ərazilər siyahısındadır, milli parkdır. Orada hər hansı infrastrukturun həlli üçün əlavə icazələr alınmalıdır”.



Rauf Ağamirzəyev

### ZOLAQLARI BİR METR QISALTMAQ MÜMKÜNDÜR

Ekspert bildirdi ki, avtomobillər üçün olan zolaqlarda mikromobillik vasitələri üçün yol yaratmaq olar: “Yolun hərəkət hissəsində velosiped zolaqları təşkil etmək mümkündür. Bu vasitələr kiçik ölçülü olduğu üçün çox yer tutmayacaq. Avtomobillər üçün mövcud yol sahəmiz var. Zolaqların ölçüsü 3 metr 50 santimetr-3 metr 75 santimetrdir. Maşınların eni isə 2 metr 20 santimetr ölçüsündədir. Deməli, hər zolağı rahatlıqla 2 metr 50 santimetr etmək mümkündür. Artıq qalan sahəni mikromobillik vasitələri üçün hazırlamaq olar. Avtomobillər və avtobuslar daha diqqətli şəkildə hərəkət edə bilərlər. Lakin bunu səkiyə çıxmamaq şərti ilə etmək lazımdır”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 3381
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
23 DEKABR ŞƏNBƏ 2023
www.kaspi.az



# XANKƏNDİDƏ İLK FUTBOL OYUNU

Nəhayət, futbol da işğaldan azad olunan ərazilərimizə qayıdıb. Bu ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində 24 saat ərzində bir sıra ərazilərimiz separatçılardan təmizlənib. Futbol azarkeşlərinin ilk günlərdən Xankəndi şəhər stadionunda matç keçirilməsi arzusu isə dekabrın 21-də reallaşıb. Azərbaycan Kubokunun 1/8 final mərhələsinin "Qarabağ" - Mərkəzi Ordu İdman Klubu (MOİK) qarşılaşması məhz Xankəndi şəhər stadionunda təşkil olunub. Sözügedən arena təxminən iki ay ərzində görülən işlər nəticəsində demək olar ki, yenidən qurularaq tam hazır vəziyyətə gətirilib. Stadionun meydançası yenilənib, tribuna və digər yerlərdə separatçılara məxsus tör-töküntülər təmizlənib. Arenanın tribunalarına "Xankəndi" sözünün və "Qarabağ Azərbaycandır" ifadələrinin yazılması isə hər bir azərbaycanlını fərəhləndirib. "Qarabağ" - MOİK qarşılaşmasının təşkilatçılığı ən yüksək səviyyədə həyata keçirilib. Matça Bakıdan fəxri qonaqlar, şəhid ailələri, azarkeşlər yola düşüb, medianın geniş miqyasda təmsil olunması, qarşılaşmanın yüksək səviyyədə işıqlandırılması təmin olunub.





**Fotolar:** Sabir Məmmədov/ Global Media Group

## ARTIQ İŞĞALDAN AZAD RAYONLARIMIZDA İDMAN YARIŞLARI KEÇİRİLİR

# XANKƏNDİDƏ FUTBOL BAYRAMI

Nəhayət, futbol da işğaldan azad olunan ərazilərimizə qayıdıb. Futbol azarkeşlərinin ilk günlərdən Xankəndi şəhər stadionunda matç keçirilməsi arzusu dekabrın 21-də reallaşıb. Azərbaycan Kubokunun 1/8 final mərhələsinin "Qarabağ" - MOİK qarşılaşması Xankəndi şəhər stadionunda təşkil olunub.





2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ordusu erməni işğalında olan torpaqlarımızı azad etdi. Ölkəmizin ərazi bütövlüyünün bərpasından dərhal sonra tarixi Azərbaycan torpaqlarında bərpa-quruculuq işlərinə start verildi və proses sürətlə həyata keçirilməyə başladı. Böyük Qayıdış planı əsasında artıq bir çox ailələr uzun həsrətdən sonra doğma yurd-yuvalarına qayıdıblar. Hazırda da proses davam edir və dədə-baba torpaqlarına qayıdan insanların sayı sürətlə artmaqdadır.

İşğaldan azad edilmiş ərazilərə sözün həqiqi mənasında həyat qayıdır. İnfrastruktur qurulur, sosial-iqtisadi, mədəni tədbirlər həyata keçirilir, evlər tikilir, iş yerləri açılır, erməni vandalları tərəfindən məhv edilmiş tarixi abidələrimiz bərpa edilir və s. Bərpa-quruculuq işlərinin belə sürətlə aparılması, şübhəsiz, Azərbaycan dövlətinin gücünün göstəricisidir.

### İDMAN DA PROSESDƏN KƏNAR DEYİL

Dövlət siyasətinin vacib elementi kimi idman da Böyük Qayıdış prosesinin tərkib hissəsidir. Artıq azad edilən ərazilərdə bir sıra idman tədbirləri həyata keçirilib. İlk olaraq Suqovuşanda avarçəkmə yarışı keçirilib və avarçəkmə işğaldan azad edilmiş ərazilərə "ayaq açan" ilk idman növü olub. Keçən ilin sentyabrında Şuşada ilk dəfə beynəlxalq şahmat turniri təşkil olunub. "Shusha Chess 2022" turnirinə dünya şahmat elitasında yer alan bir çox məşhur "iti zəka sahibi" qatılıb. Bu il isə Şuşa daha bir beynəlxalq turnirə - 3x3 basketbol üzrə Dünya Qadın Seriyasının mərhələ oyunlarına ev sahibliyi edib.

## FUTBOL MATÇININ MƏNƏVİ TƏRƏFLƏRİ

Son Azərbaycan çempionu, ölkəmizi beynəlxalq miqyasda uğurla təmsil edən "Qarabağ" I Liqa klubu MOİK üzərində minimal hesablı qələbə qazanaraq ölkə kubokunun ¼ finalına vəsiqə qazanıb. "Hərbçilər" güclü rəqibinə layiqli müqavimət göstəriblər və yalnız əsas vaxta əlavə edilmiş dəqiqələrdə qol buraxaraq 0:1 hesabı ilə yeniliblər. Ancaq bu, tək məsələnin idman tərəfidir. Xankəndidəki futbol matçının mənəvi tərəfləri isə daha böyükdür. İlk növbədə iştirakçı komandalar olduqca simvolik idi. "Qarabağ" uzun illər işğalda olan ərazilərimizi təmsil edən klub, MOİK isə həmin əraziləri işğaldan azad edən şanlı Ordunun komandasıdır. Məhz bu kollektivlərin tarixi Azərbaycan torpağı Xankəndidə üz-üzə gəlməsi çox böyük simvolik məna daşıyır.

**"QARABAĞ" - "MOİK"**
**1:0**

## QALİB AZƏRBAYCAN XALQI, AZƏRBAYCAN DÖVLƏTİDİR

Qarşılaşmanın böyük əhəmiyyətini göstərən ən əhəmiyyətli məqam Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın oyunu stadiondan izləməsidir. Dövlət başçısı stadionda çıxışı zamanı matçın nəticəsindən asılı olmayaraq, qalibin Azərbaycan xalqı, Azərbaycan dövləti olduğunu bildirib. Elə bunun da nəticəsində dostluq ab-havasında keçən qarşılaşmadan sonra nə meydanda, nə də meydandan kənarda üzülən yox idi. Əksinə, hər kəs sevinir, hər kəs fərəh hissi keçirirdi. Arenanın tribunalarında klubların azarkeşləri öz komandalarını dəstəkləməkdən çox "Qarabağ Azərbaycandır!", "Yaşasın Azərbaycan!" və buna bənzər müxtəlif birlik şüarları səsləndiriblər. Obrazlı ifadə etsək, bu dəfə Xankəndidə eşidilən top səsləri kədər yox, sevinc bəxş edib.

Azərbaycanlılar doğma yurd-yuvalarına qayıdırlar və oraları gözəlləşdirirlər. 30 ilə yaxın müddət ərzində hər cür mədəni, idman, sosial və digər xarakterli tədbirlərdən kənar qalan, məhv edilən tarixi torpaqlarımıza yeni nəfəs gəlməkdədir. Bu, hələ başlanğıcdır.